HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər




Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 17 (808) ▪ 4 may 2016 www.vergiler.az Qiymət: 55 qəp.

# Azərbaycan Prezidenti İlham Əliyevin təmas xəttində yerləşən rayonlara səfəri

*Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar.*

Dövlətimizin başçısı əvvəlcə Tərtər rayonundakı «N» saylı hərbi hissənin qərargahı ilə tanış olub. Təmas xəttindəki son vəziyyət barədə Ali Baş Komandana



məlumat verilib. Bildirilib ki, hərbi hissədə əsgər və zabitlər üçün hər cür şərait yaradılıb, kazarma müasir standartlara cavab verir. Burada əsgərlərin hərbi bilik və bacarıqlarını daha da artırmaları üçün münasib şərait formalaşdırılıb. Yataq otaqları da hərtərəfli təchizatı ilə diqqəti çəkir.

Prezident İlham Əliyev hərbi hissənin şəxsi heyəti ilə görüşüb. Dövlətimizin başçısı bildirib ki, ordu quruculuğu bizim prioritet vəzifəmizdir: «Bu, təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. 1994-cü ildə atəşkəs rejimi yaradılıbdır. Ancaq buna baxmayaraq, Ermənistan atəşkəs rejimini daim kobudcasına pozur. Xüsusilə görəndə ki, onlara qarşı münaqişə ilə bağlı beynəlxalq təzyiq artır, onlar atəşkəsi daha çox pozurlar və müxtəlif silahlı təxribatlara əl atırlar. Beynəlxalq ictimaiyyət münaqişə ilə bağlı artıq tam məlumatlıdır. Biz bu illər ərzində bütün dünyaya sübut edə bilmişik ki, zərərçəkən tərəf bizik. Ermənistan işğalçı dövlətdir, Azərbaycan xalqına qarşı soyqırımı törədib, torpaqlarımızı işğal edib və bu işğalı davam etdirir. Bu məsələ ilə məşğul olan Minsk qrupunun həmsədrləri də son vaxtlar dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və dəyişməlidir».

Azərbaycan Prezidenti qeyd edib ki, ölkəmiz münaqişənin sülh yolu ilə həll olunmasını istəyir, amma görüntü naminə danışıqların aparılmasının da heç bir mənası yoxdur: «Aprelin 5-də razılığa gəlindi ki, atəşkəs rejimi bərpa edilməlidir. Biz buna əməl etdik, bu gün də əməl edirik. Ancaq əfsuslar olsun, Ermənistan yenə də özünü qeyri-səmimi aparır və aprelin 5-dən bu günə qədər elə gün olmur ki, atəşkəsi pozmasın. İlk günlərdə çalışırdı ki, bizim mövqelərimizə hücum çəksin, bizi ələ etdiyimiz o mövqelərdən çıxarsın. Görəndə ki, bu alınmır, Azərbaycan əsgəri, zabiti öz doğma torpağında möhkəm dayanır, mülki əhaliyə qarşı silahlı təxribatlara başladılar. Bizim kəndlərimiz atəşə tutulub. Mülki şəxslər həlak olub, yaralanıb. Bizim 500-dən çox evimizə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb, yaxud da ki, yandırılıb. Bax budur, erməni faşizminin eybəcər sifəti. Onlar birinci Qarabağ müharibəsində də belə hərəkətlər edirdilər, Azərbaycan xalqına qarşı Xocalı soyqırımı törədilmişdir. Bu gün də döyüş meydanında görəndə ki, gücü çatmır, dinc əhalini hədəfə götürür».



Prezident İlham Əliyev bildirib ki, Azərbaycan dövləti, Azərbaycan Ordusu heç vaxt mülki əhali ilə müharibə aparmayıb və aparmır: «Biz sadəcə olaraq, düşmənin atəş mövqelərini bizə açılan atəş zamanı böyük ustalıqla məhv edirik. Ancaq eyni zamanda, Azərbaycan Ordusu öz vətəndaşlarını qorumalıdır, qoruyur və qoruyacaq. Münaqişənin həlli Ermənistan dövlətinə də imkan verəcək ki, onlar da müstəqil dövlət qura bilsin. Mən yenə də ümid edirəm ki, onların işğalçı siyasəti sona çatacaq. Çünki bunun başqa yolu yoxdur. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və son hadisələr bunu bir daha göstərdi. Bizə qarşı edilən silahlı təxribat cavabsız qalmadı. Bunu hamı bilir. Ermənistan rəhbərliyi nə qədər tez anlasa ki, onlar ancaq Azərbaycan ilə sülh şəraitində inkişaf edə bilərlər, münaqişəyə bir o qədər tez son qoyular»

Dövlətimizin başçısı qeyd edib ki, bütün beynəlxalq təşkilatlar - BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir: «Heç bir beynəlxalq təşkilat Ermənistanın işğalçı siyasətini dəstəkləmir. Dünyada heç bir ölkə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. İşğal edilmiş Dağlıq Qarabağ və digər torpaqlar bizim tarixi torpaqlarımızdır. Azərbaycan vətəndaşları o torpaqlarda yaşamalıdır və yaşayacaqlar».

Həmişə orduda xidmət edənlərə böyük hörmətlə yanaşdığını bəyan edən Ali Baş Komandan düşmənlə üz-üzə səngərlərdə ayıq-sayıq dayanan, torpaqlarımızı, vətəndaşlarımızı müdafiə edən cəsur hərbçilərimizin bu böyük, şərəfli missiyasını yüksək qiymətləndirib və təmas xəttində Ermənistan ordusunun törətdiyi təxribatların qarşısını alarkən şücaət göstərmiş döyüşçülərə hədiyyələr təqdim edib.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində zərər çəkmiş Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağıdılmış evlərə baxıblar. Dövlətimizin başçısına məlumat verilib ki, ermənilərin törətdiyi vəhşiliklər nəticəsində Tərtərin yaşayış məntəqələrində 256 evə, 4 məktəbə, 2 hakim məntəqəsinə, 1 uşaq bağçasına ziyan dəyib, 32 ev tamamilə dağıdılıb. Sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev dəymiş ziyanın tezliklə aradan qaldırılacağını bildirib.

Həmin gün dövlətimizin başçısı və xanımı cəbhə xəttinin 200 metrliyində yerləşən Tərtər rayonunun Qapanlı kəndinə gəliblər, artilleriya zərbəsi nəticəsində evi dağılmış kənd sakini Abbas Abbasovun həyətində olublar. Düşmənin açdığı atəş nəticəsində bu kənddə 55 evə ziyan dəyib, 14-ü tamamilə dağıdılıb. Sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev bildirib ki, ordumuz döyüş meydanında öz qüdrətini göstərir, lakin ermənilər mülki əhaliyə atəş açırlar. Dövlətimizin başçısı qeyd edib ki, bu kənddə də düşmən güllələrinin və mərmilərin törətdiyi fəsadların aradan qaldırılması üçün bütün tədbirlər görüləcək. Sakinlər Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər. Qeyd ediblər ki, onlar Ali Baş Komandana və qüdrətli Azərbaycan Ordusuna arxalanaraq öz torpaqlarını tərk etmək fikrində deyillər və düşmənlə üz-üzə mövqedə gündəlik işləri ilə məşğuldurlar.



Sonra Prezident İlham Əliyev və xanımı onun qoşunların təmas xəttində yerləşən Mahrızlı kəndinə gəliblər. Dövlətimizin başçısı və xanımı Ermənistan ordusunun vəhşilikləri nəticəsində kənddə yaranmış vəziyyətlə tanış olublar. Sakinlərlə görüş zamanı Ermənistanın təxribatına Azərbaycan Ordusunun layiqli cavab verdiyini deyən Ali Baş Komandan düşmənlə üzbəüz mövqelərdə yerləşən yaşayış məntəqələrinin sakinlərinin fədakarlıqlarını, cəsarətini və torpağa bağlılıqlarını xüsusi vurğulayıb və bunu əsl vətəndaşlıq nümunəsi kimi dəyərləndirib. Dövlətimizin başçısı dağılmış evlərin, sosial obyektlərin tezliklə bərpa olunacağını bildirib.

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bərdə şəhərindəki Müalicə-Diaqnostika Mərkəzinə də baş çəkiblər. Bu tibb ocağı ölkəmizdə səhiyyə islahatları çərçivəsində yaradılan və ən müasir standartlara cavab verən ilk müalicə diaqnostika mərkəzlərindən biridir. Qeyd olunub ki, düşmənin dinc əhalini hədəfə alması nəticəsində Ağdamın Çəmənli və Qaradağlı kəndlərində yaralanmış 3 nəfər dinc sakin burada müalicə olunur. Dövlətimizin başçısı və xanımı onların vəziyyəti ilə maraqlanıblar və tezliklə sağalmalarını arzulayıblar. Prezident İlham Əliyev Bərdə Müalicə-Diaqnostika Mərkəzinin kollektivinə yaralılara yüksək səviyyədə xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

# Dövlət başçısı Ağsuda bir sıra obyektlərin açılışında iştirak edib

*Prezident İlham Əliyev aprelin 29-da Ağsu rayonuna səfərə gəlib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Bildirilib ki, abidənin ucaldıldığı Heydər Əliyev Parkında geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Park rayon sakinlərinin sevimli istirahət mərkəzlərindən birinə*

Sonra ölkə Prezidenti Ağsu Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib. Bildirilib ki, 160 çarpayılıq xəstəxana 3 hektardan çox ərazidə inşa olunub. Əsas bina, yoluxucu xəstəliklər korpusu və 15 çarpayılıq vərəm dispanserindən ibarət olan xəstəxanada doğum, terapiya, cərrahiyyə, pediatriya, anesteziologiya-reanimasiya, patoloji-anatomiya, poliklinika şöbələri fəaliyyət göstərəcək. Bundan əlavə, şüadiaqnostika, hemodializ və laboratoriya şöbələri də xəstələrin istifadəsində olacaq.

Prezident İlham Əliyev xəstəxananın kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı bildirib ki, bu xəstəxana Azərbaycanda son vaxtlar tikilən ən böyük səhiyyə ocaqlarından biridir: «Ağsu rayonunun əhalisi təxminən 80 min nəfərdir. Bu gün 24 min kvadratmetr böyüklüyündə xəstəxana istifadəyə verilir. Əminəm ki, burada çalışan həkimlər yüksək xidmət göstərəcəklər, insanlara qayğı ilə yanaşacaqlar və artıq başqa yerlərə müalicə almaq üçün getməyə ehtiyac olmayacaq. Bu, mənim Prezident kimi Ağsuya beşinci səfərimdir. Bu illər ərzində doğrudan da bir çox vacib layihələr icra edildi. Qazlaşdırma səviyyəsi təxminən 90 faizə çatır. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Ağsu şəhərinin içməli su ilə təmin edilməsi məsələsi öz həllini tapıbdır. Kənd yollarının tikintisi gedir. Bir neçə layihə icra edilib. Mən indi əlavə göstəriş verəcəyəm, vəsait ayıracağam ki, yeni kənd yolları layihələri icra edilsin. Bakı-Şamaxı yolu artıq genişlənir. Dördzolaqlı yol olacaq. Yəni gəliş-gediş rahat olacaq. Digər istiqamətə gedən Göyçay-Ağdaş yolu da lazımi səviyyədə təmir edilir. Ona görə, bütün infrastruktur layihələri artıq ya başa çatıb, ya da ki yaxın zamanlarda başa çatacaq. İndi əsas vəzifə yerli istehsalın artırılması, kənd təsərrüfatının inkişafıdır. Biz yeni əkin sahələrini dövriyyəyə buraxmalıyıq. Suvarmanı daha yaxşı səviyyədə təşkil etməliyik. Biz gərək ənənəvi olan kənd təsərrüfatı sahələrini canlandıraq, bərpa edək».



Prezident İlham Əliyev Ağsu rayonuna səfəri çərçivəsində Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında da iştirak edib. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib. Bildirilib ki, ölkəmizin regionlarını birləşdirməsi baxımından mühüm əhəmiyyət daşıyan bu yol uzun müddət əsaslı təmir edilmədən istismarda olub. Yolu fərqləndirən cəhət bəzi yerlərdə çətin dağlıq ərazidən keçməsidir. Buna görə də yolboyu geniş bərkitmə və torpaq işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan iki hərəkət zolaqlı yolun ümumi uzunluğu 115,15 kilometr, yol yatağının eni 12,5 metr, hərəkət hissəsinin eni isə 7,5 metrdir.

Yolun yenidən qurulması layihəsində nəzərdə tutulan 7 eyni səviyyəli dairəvi yol kəsişməsinin, 54 yol birləşməsinin və 263 suötürücü borunun tikintisi işləri aparılıb, həmçinin 6 körpü sökülərək yenidən inşa edilib.

# Vergilər naziri Fazil Məmmədov Neftçalada vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.

Növbəti belə qəbul aprel ayının 29-da vergilər naziri Fazil Məmmədov tərəfindən Neftçala şəhərində Neftçala, Şirvan və Salyan rayonlarından olan vətəndaşlar üçün təşkil olunub. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Vergidən yayınan şəbəkə aşkar olunub

E-ticarətlə məşğul olan və məhsulları internet vasitəsilə reklam edilən vergi ödəyicilərinin fəaliyyəti təhlil olunarkən, «SİNTRA+» brendi adı altında su filtrlərinin satışını həyata keçirən fiziki şəxslər tərəfindən təqdim edilmiş vergi hesabatlarında bəyan olunmuş vergi öhdəlikləri və muzdlu işə cəlb edilmiş işçi sayları arasında ciddi kənarlaşmalar aşkarlandığından, həmin vergi ödəyicilərində vergi nəzarəti tədbirləri həyata keçirilib.

Araşdırma zamanı vergi ödəyiciləri Azər Nazim oğlu Həsənovun fəaliyyət göstərdiyi Bakı şəhərinin Səbail və Nərimanov rayonlarında yerləşən obyektlərdə («Su filtrlərinin servisi və saxlanılması anbarı» və «Su filtrlərinin servis ofisi»), Məhəmməd Mayıl oğlu Müşkürovun Sumqayıt şəhərində yerləşən «Su filtrlərinin servisi və satışı» obyektində, həmçinin Asim Alim oğlu Cəfərovun Gəncə şəhərində yerləşən ofisində ciddi qanunsuzluqlar aşkar edilib. Yoxlama zamanı vergi hesabatlarında gəlirləri bəyan etməməklə maliyyə sənədlərinin saxtalaşdırılaraq külli miqdarda vergidən yayınma, habelə həmin vergi ödəyiciləri tərəfindən əmək müqavilələrinin (kontraktının) hüquqi qüvvəyə minmədən 37 nəfərin işlərə cəlb olunduğu müəyyən edilib və yol verilmiş qanun pozuntuları müvafiq aktlarla rəsmiləşdirilib. İşçilərdən alınmış izahatlardan aydın olub ki, bu şəhədə bir neçə ay ərzində fəaliyyət göstərmələrinə baxmayaraq, onlarla əmək müqaviləsinin (kontraktının) hüquqi qüvvəyə minməsi ilə bağlı sənədləşdirmə işləri aparılmayıb.

Araşdırma zamanı nəzarət tədbirinin keçirildiyi obyektlərin vergi orqanında qeydiyyata alınmadığı və nəzarət-kassa aparatı quraşdırılmadan fəaliyyət göstərdikləri müəyyən olunaraq, vergi hesabatlarında bəyan etməməklə külli miqdarda vergilərin gizlədilməsini müəyyən edən sənədlər götürülüb. Faktla bağlı materiallar Cinayət Məcəlləsinin müvafiq maddəsi üzrə cinayət işinin başlanması üçün Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilib.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, qanunvericiliklə müəyyən edilmiş vergi öhdəliklərinin vaxtında yerinə yetirilməməsi və işçilərin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin görülməsinə cəlb olunması halları yolverilməzdir və bu kimi faktların qarşısı gələcəkdə də qətiyyətlə alınacaqdır.

# Avropa İttifaqı institutlarının fəaliyyəti ilə tanışlıq

ADA Universitetinin Avropa İttifaqı (Aİ) məsələləri üzrə Bilik Mərkəzi tərəfindən Birlik barədə dövlət qulluqçularının məlumatlılığının artırılması layihəsi çərçivəsində Lüksemburq və Brüssel şəhərlərinə təlim səfəri təşkil edilmişdir. Səfər zamanı Avropa Auditorlar Palatası, Avropa Parlamenti, Avropa Xarici Fəaliyyət Xidməti, Azərbaycanın Belçikadakı səfirliyi, Avropa Şurasının Brüsseldəki Ofisi, Belçikanın Xarici İşlər Nazirliyi və NATO-da bir sıra görüşlər keçirilmişdir. Bu tədbirlərdə Azərbaycanın dövlət qulluqçularının səfəri yüksək qiymətləndirilmiş, ölkəmizlə Aİ arasında münasibətlərin inkişafı üçün yaxşı zəmin olduğu vurğulanmışdır. Görüşlər zaman Aİ-nin ayrı-ayrı qurumları və NATO nümayəndələri tərəfindən müxtəlif təqdimatlar nümayiş etdirilmiş, qarşılıqlı münasibətlərə dair fikir mübadiləsi aparılmışdır.

Qeyd olunan tədbirlərdə Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin böyük dövlət vergi müfəttişi Məmməd Qasımov da iştirak etmişdir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Mərkəzi Bankının sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 2016-cı il may ayının 1-nə **4 milyard 120,6 milyon** ABŞ dolları təşkil edib.
- Ölkədə pul bazasının həcmi aprel ayında **190,3 milyon** manat artaraq mayın 1-nə **6.726,1 milyon** manat olub.
- Sahibkarlığa Kömək Milli Fondu indiyədək doqquz süd emalı zavodunun tikintisinə **22 milyon** manat vəsait ayırıb.
- Bu ilin I rübündə kənd təsərrüfatı məhsulları istehsalçılarına **2 milyon** manatdan çox güzəştli kredit verilib.
- Aprel ayında «Yaşıl Kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən **387** beynəlxalq sığorta müqaviləsi bağlanıb.
- Ötən ay ölkənin enerji sistemində **1,7 milyard** kilovat-saata yaxın elektrik enerjisi istehsal edilib.

# Hər kəsin Konstitusiya borcu...

Vergi borclarının alınması mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinin təmin edilməsi üsulu kimi vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək vergi orqanlarının hüquqlarına aid edilib. Miqrasiya Məcəlləsi isə istər Azərbaycan Respublikasının vətəndaşının, istərsə də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vergi borcu olduğu halda, vergi orqanlarının müraciətlərinə əsasən məhkəmə qərarı ilə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırır. «İcra haqqında» Qanunla məhkəmə qərarları əsasında verilmiş icra sənədləri könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, borclunun ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırıla bilər...

Əvvəllər ölkədən getmək hüququnun məhdudlaşdırılması yalnız fiziki şəxslərə şamil olunurdusa, yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən hüquqi şəxslərin icra qurumlarının rəhbərlərinə də bu qadağalar şamil edildi. Göründüyü kimi, ölkə qanunvericiliyi vergi borcunu tam ödəməyənə kimi belə şəxslərin ölkədən kənara çıxmasına icazə vermir. Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin vergi öhdəliklərini yerinə yetirməsi üçün onların maarifləndirilməsinə xüsusi önəm verilir, nazirliyin bütün xidmət kanalları vasitəsilə verginin ödənilmə və bəyannamənin verilmə müddətləri, vergilərin vaxtında ödənilməməsinə və bəyannamələrin vaxtında verilməməsinə görə tətbiq olunan məsuliyyət tədbirləri və s. barədə mütəmadi maarifləndirilmə tədbirləri həyata keçirilir. Bununla belə, vergi öhdəliklərini yerinə yetirməyən və vergi borcuna görə ölkədən çıxışına qadağa qoyulan vergi ödəyiciləri də az deyil. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində vergi borcuna görə ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış vergi ödəyicilərinin siyahısına əsasən, ölkədən getmək hüququ məhdudlaşdırılmış fiziki şəxslərin sayı 219, hüquqi şəxslərin icra orqanlarının rəhbərləri isə 115 nəfərdir. Rəqəmlər borcun ödənilib-ödənilməməsinə uyğun olaraq mütəmadi dəyişir.

Qeyd edək ki, nazirlik tərəfindən vergi ödəyicilərinə vergi borcu barədə məlumatı daha tez əldə etmək üçün bir neçə variant təklif edilir. Bunlar imkan verir ki, vergi ödəyiciləri vergi orqanına yazılı müraciət etmədən vergi borcları və ödədiyi vergilər barədə daha tez məlumat ala bilsinlər.




Variantlardan biri Vergilər Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə həyata keçirilir. Vergi ödəyicisi 195 nömrəsinə zəng edib «1» düyməsi ilə Vergilər Nazirliyinə qoşulduqdan sonra «3» düyməsini seçir, daha sonra VÖEN-ni daxil edərək «#» düyməsini sıxmaqla həmin tarixə vergi borcu barədə məlumatı əldə edə bilər.

Daha bir variant isə İnternet Vergi İdarəsinə daxil olmaqla vergi borcu barədə məlumat əldə etməkdir. Bunun üçün vergi ödəyicisi ona məxsus istifadəçi kodu, parol, şifrə və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə «İnternet Vergi İdarəsi»nin «E-bəyannamə, ƏDV-DH və ŞHV» (https://login.e-taxes.gov.az/login/) bölməsinə daxil olur, sonra «Məlumat axtar» altbölməsindəki «Şəxsi hesab vərəqəsi»nə daxil olmaqla öz öhdəlik və borcu ilə bağlı məlumatları əldə edə bilər.

SMS göndərməklə də bu fürsətdən istifadə etmək olar. Vergi ödəyicisi Vergilər Nazirliyinin təqdim etdiyi «İkitərəfli SMS xidməti»nə (www.taxes.gov.az/195sms) qoşulmaqla (abunə olmaqla) 21, xidmətdən sorğu vasitəsilə (SMS göndərməklə) isə 5 istiqamət üzrə vergi öhdəlikləri barədə məlumatları əldə edə bilər. Xidmətdən istifadə etmək üçün mobil operatorlara məxsus telefon nömrəsindən *195*istifadəçi kodu*şifrə#yes yığmaqla qeydiyyatdan keçmək tələb olunur. Bununla yanaşı, vergi ödəyicisi abunə olmaqla və abunə olmadan da vergi öhdəlikləri barədə məlumatlana bilər. O, qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə START yazıb SMS göndərməklə (abunə olmaqla) 21 sayda vergi öhdəlikləri barədə məlumatları SMS vasitəsilə əldə edə bilər. Eləcə də qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə müvafiq rəqəmləri yazıb SMS göndərməklə (abunə olmadan) «1» - dövlət büdcəsinə olan vergi borcu, «2» - təqdim etməli olduğu bəyannamələr, «3» - fəaliyyətinin aktiv və ya dayandırılmış olması, «4» - e-qutuda oxunmamış məktubların olub-olmaması və «5» - qeydiyyatda olan təsərrüfat subyektləri barədə məlumatları ala bilər.

**AYTƏN**

# «Sahibkarlar günü» ilə bağlı tədbir

Azərbaycan Respublikası Prezidentinin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, aprelin 25-i ölkəmizdə «Sahibkarlar Günü» kimi qeyd edilir. Bununla bağlı aprelin 25-də İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə «Sahibkarlar günü»nə həsr olunmuş konfrans keçirilmişdir. Tədbirdə aidiyyəti dövlət qurumlarının, beynəlxalq təşkilatların, xarici ölkələrin Azərbaycandakı ticarət palatalarının nümayəndələri, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 300-dən çox sahibkar iştirak etmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində atılan addımların sistemli və ardıcıl xarakter daşıdığını, dövlət başçısı tərəfindən son zamanlar imzalanmış sənədlərin, qəbul edilmiş qərarların sahibkarlığın inkişafına verilən böyük dəstəyin göstəricisi olduğunu vurğulamışdır.

İqtisadiyyat naziri Şahin Mustafayev çıxışında «Sahibkarlar günü»nün təsis olunmasının sahibkarların fəaliyyətinə verilən yüksək qiymət olduğunu, dövlət başçısı tərəfindən sahibkarlığın inkişafına göstərilən böyük diqqət və qayğının növbəti göstəricisi kimi dəyərləndirmişdir. Qeyd olunmuşdur ki, ölkədə aparılan səmərəli islahatlar, o cümlədən bir sıra sahələrdə vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parklarının və məhəllələrinin, aqroparkların, biznes-inkubatorların yaradılması, maarifləndirici tədbirlər, biznes-forum və sərgilərin təşkili və digər məqsədyönlü işlər nəticəsində ÜDM-də özəl bölmənin payı 80%-i, məşğulluqda isə 74%-i ötmüş, ölkə iqtisadiyyatı şaxələnmiş, özünütəminat səviyyəsi yüksəlmişdir. Sahibkarlıq subyektlərində aparılan yoxlamaların dayandırılması, lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, sahibkarların şikayətlərinə daha həssas yanaşılması məqsədilə apelyasiya şuralarının yaradılması, dövlət satınalmalarında şəffaflığın artırılması və ədalətli seçimin təmin olunması, investisiyanın təşviqi və s. özəl sektorun inkişafında xüsusilə əhəmiyyətlidir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə dövlət başçısının rəhbərliyi ilə son dövrdə ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, eləcə də bu sahədə aparılmış islahatlar və qəbul edilmiş qanunvericilik aktlarının önəmini vurğulamışdır.

Kənd təsərrüfatı naziri Heydər Əsədov, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev, Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov sahibkarlığın inkişafına daha münbit şərait yaratmaq üçün təmsil etdikləri dövlət qurumları tərəfindən son zamanlar həyata keçirilən tədbirlər barədə məlumat vermişlər.

Konfransda Beynəlxalq Maliyyə Korporasiyasının ölkə üzrə direktoru Aliyə Əzimova, «Azersun Holdinq» MMC-nin prezidenti Abdulbari Goozal, «Rabitəbank» ASC-nin Müşahidə Şurasının sədri Zakir Nuriyev, «Karat Holdinq» MMC-nin direktoru Taleh Qasımov, «NEON» firmasının baş direktoru Arif Həsənov, «Mətanət A» şirkətinin direktoru Elxan Bəşirov və digər sahibkarlar çıxış etmişlər.

Sonra özəl bölmənin inkişafı perspektivləri ilə bağlı müzakirələr aparılmışdır. Tədbirin sonunda ölkə sahibkarları adından Azərbaycan Respublikasının Prezidentinə müraciət qəbul edilmişdir.

**FƏXRİYYƏ**

# Vergidən azad etməkdənsə, stimullaşdırıcı vergi mexanizminin tətbiqi daha məqsədəuyğundur



*Müsahibimiz AMEA İqtisadiyyat İnstitutunun «Xidmət sahələrinin inkişafı problemləri» şöbəsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Aqil Əsədovdur*

***- Aqil müəllim, sahibkarlığın və biznesin inkişafı, idarəetmənin şəffaflaşdırılması istiqamətində aparılan islahatların nəticələri ilə bağlı ölkədə ümumi mənzərə necə görünür?***

- Azərbaycan sürətlə qlobal məkana inteqrasiya olunub və beynəlxalq iqtisadi məkanda baş verən proseslərin milli iqtisadiyyatımıza da müəyyən təsirlərini təbii hesab etmək mümkündür. Qlobal iqtisadi proseslər ölkəmizdə iqtisadiyyatın inkişafı ilə bağlı qarşıya yeni tələblər qoyur. Neftin qiymətinin ucuzlaşması səbəbindən ehtimal edilən çətinliklərin qarşısının alınması, mənfi təsirlərin minimuma endirilməsi, neftdənkənar istehsal və ixrac sahələrinin inkişaf etdirilməsi, azad biznes fəaliyyəti üçün daha əlverişli şərait yaradılması ilə əlaqədar göstərilən səylərin müsbət nəticələrindən danışa bilərik. Qeyri-neft sektorunda istehsalı və ixracı stimullaşdırmaq üçün qəbul edilən mühüm qərarların bir hissəsi vergi məsələləri ilə bağlıdır. Milli istehsala dəstək məqsədilə tətbiq olunan vergi güzəştləri regional inkişafın təmin olunması, idxaldan asılılığın azaldılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bütün müsbət cəhətləri qeyd etməklə yanaşı, mən bir iqtisadçı kimi vergi güzəştləri ilə müqayisədə verginin stimullaşdırıcı tətbiqini daha məqsədəuyğun hesab edirəm. Bu halda sahələr üzrə, vergi dərəcələri üzrə diferensial yanaşmanın tətbiqi, «çox qazan, az ödə», «çox iş yeri yarat, aşağı dərəci ilə ödə» prinsipləri ilə stimullaşdırmanı nəzərdən keçirmək olar. İstehsala vergi güzəşti də elə olmalıdır ki, istehsalçı ələbaxan olmasın, geniş təkrar istehsala meyilli olsun. Yəni dövlətin verdiyi imtiyazlar milli istehsalın gücləndirilməsinə, güclü rəqabətə dözümlü milli sahibkarlığın möhkəmlənməsinə xidmət etməlidir.

Artıq özəl bölmədə qeyri-neft sahələrinin, kənd təsərrüfatı, turizm, yüngül sənaye, nəqliyyat-tranzit, İKT, ticarət və xidmət sahələrinin payının artması müşahidə edilir. Bununla yanaşı, həmin sahələrin xüsusi çəkisi ÜDM-də hələ istənilən səviyyədə deyil, bunu 2 dəfəyə yaxın artırmaq olar, çünki potensial imkanlar, real baza var.

***- Siz ticarət və xidmət sahələrini qeyd etdiniz. İnkişaf etmiş ölkələrin əksəriyyətində ticarət və xidmət sektoru iqtisadiyyatda əsas çəkiyə malik olan sahələrdəndir. Azərbaycanda bu sahədə vəziyyət necədir?***

- Bu gün dünyanın əksər aparıcı ölkələrində xidmət sektorunun ÜDM-də payı 55-60%-dən yuxarıdır. Məsələn, ÜDM-in ABŞ-da 74%-i, Yaponiyada 59%-i, Almaniyada 69,1%-i, Türkiyədə 66%-i, Fransada 77,3%-i, Avstriyada 65,6%-i, Rusiyada 58,7%-i, Ukraynada 68,4%-i, Qazaxıstanda 55%-i və s. xidmət sahələrinin payına düşür. Estoniyada ÜDM-in 71%-ni, Litvada isə 62%-ni xidmət sektoru formalaşdırır.

Azərbaycanda ticarət və xidmət sektoru tamamilə özəl bölmədə formalaşıb və bu sahədə çalışan sahibkarlıq subyektlərinə azad və liberal fəaliyyət üçün münbit mühit təmin edilib. Yəni azad ticarətin sərbəstliyi mövcuddur. Zəngin potensial imkanların olmasına baxmayaraq, ölkəmizdə bu göstərici 30-33% civarındadır. Təbii ki, bu istiqamətdə dövriyyəyə cəlb edilməyən, istifadə olunmayan potensial imkanlar mövcuddur. 2025-ci ilə qədər ölkəmizdə xidmət sektorunun ÜDM-də xüsusi çəkisinin 43-45%-ə çatdırılması proqnozlaşdırılır. Neft ölkələrinin əksəriyyətində xidmət sahələrinin xüsusi çəkisi 35-40% arasında tərəddüd edir. Hesab edirəm ki, neftin qiymətində azalmalar daha qısa zamanda ölkəmizdə xidmət sahələrinin inkişafına təkan verəcəkdir.

***- Ümumiyyətlə, ölkəmizdə ticarət və xidmət sektorunun real olaraq ÜDM-də payının nə qədər artırılması mümkündür?***

- Hesab edirəm ki, ölkəmizin müqayisəli üstün olduğu ticarət və xidmət sahələrini inkişaf etdirməklə ÜDM-də payının 50%-dən çox təmin etmək mümkündür. Yuxarıda adları çəkilən xidmət sahələri üzrə imkanlar geniş və çoxcəhətlidir. Təsəvvür edin ki, ölkəmizdə cəlbedici xidmətlər və qiymətlər təklif etməklə yalnız sağlamlıq turizmindən kifayət qədər gəlir əldə etmək olar. O cümlədən turizmin digər növlərinin inkişafına diqqət yönəltmək olar. Azərbaycan dənizi, müalicəvi suları, əsrarəngiz təbiəti, çeşidli iqlim ehtiyatları, vulkanları, zəngin mətbəxi və ən əsası, qonaqpərvər insanları, etibarlı sabitliyi olan azsaylı dünyəvi dövlətlərdəndir. Digər sahələr, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi ilə təkcə bu dəhliz boyunca milyonlarla qazanc əldə etmək imkanlarımız var. Ona görə də bu sahələri inkişaf etdirməli, təkmilləşdirməli və dünyaya tanıtmalıyıq. Təbii ki, bütün bunlar xidmət sektorunun büdcənin əsas gəlir mənbələrindən birinə çevrilməsinə imkan yaradacaqdır.

***- Bu sahədə hansı problemlər mövcuddur və sektorun ÜDM-də payının artırılmasının yolunu nədə görürsünüz?***

- Ölkəmizdə ticarətin inkişafı üzrə Dövlət Proqramı qəbul olunub. Sənədə əsasən, ixrac potensialının inkişafının təmin edilməsi və ixracın strukturunun təkmilləşdirilməsi, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, idxalın səmərəliliyinin artırılması, texnoloji yeniləşmənin həyata keçirilməsi və ölkənin güclü iqtisadi potensialının yaradılması məqsədilə investisiyaların və kreditlərin prioritet sahələrə cəlb olunması, daxili bazarda azad rəqabət mühitinin inkişaf etdirilməsi, istehlakçıların hüquqlarının müdafiəsinin təmin olunması, ticarət, iaşə və digər növ xidmət sahələrində vahid informasiya-uçot sisteminin yaradılması, ölkənin iqtisadi təhlükəsizliyi kimi mühüm məsələlərin həlli öz əksini tapıb. Ticarətin müasir tipli infrastrukturunun yaradılması, milli standartlar sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, haqsız rəqabət hallarına qarşı mübarizənin gücləndirilməsi və digər məsələlər də bu sıradadır.

Eyni zamanda, xidmət sektoru üzrə qarşıya qoyulmuş hədəfə nail olmaq üçün bir neçə istiqamətdə kompleks tədbirlər həyata keçirilməlidir: kadr təminatı, qiymət cəlbediciliyi, xidmət-keyfiyyət-qiymət uyğunluğunun təmin olunması, infrastrukturun təkmilləşdirilməsi, viza məsələlərinin sadələşdirilməsi və s. Mənə elə gəlir ki, bütün istiqamətlərdə dövlət bu və ya digər dərəcədə iştirak etməlidir. Hətta bunu da stimullaşdırıcı formada etmək olar. Məsələn, il ərzində ən çox vergi ödəyən 5 turizm müəssisəsinin hər birindən 3 nəfər işçini bu sahədə tanınmış, qabaqcıl təcrübəyə malik bir ölkədə dövlət hesabına təcrübə keçməyə göndərmək olar. Eləcə də nəqliyyat-tranzit xidmətlərindən daha çox gəlir əldə etmək məqsədilə logistik daşımaların təşkili sahəsində kadr hazırlığı zəruridir. Bu istiqamətdə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və ADA Universiteti arasında kadr hazırlığı ilə bağlı imzalanmış müqavilə olduqca təqdirəlayiq addımdır. Mövcud kadrların təkmilləşdirilməsi, xarici ölkələrdə kurslara cəlb edilməsi də məqsədəuyğun olardı...

***- Bəzi sahibkarlar indiki şəraitdə ticarət sektoruna da vergi güzəştlərinin tətbiq olunmasını, vergidən azadetməni xahiş edirlər. Bu nə dərəcədə məqsədəuyğundur?***

- Ümumiyyətlə, hər hansı sahənin vergidən azad olunmasının tərəfdarı deyiləm. Dediyim kimi, vergidən azad etməkdənsə stimullaşdırıcı vergi mexanizminin tətbiqi daha məqsədəuyğundur. Xüsusilə, ticarətə vergi güzəştlərinin edilməsi o qədər də effektli deyil və bundan faydalı nəticə ummağa dəyməz. Son günlər bu məsələ fəal müzakirə mövzusuna çevrilib, hətta supermarket rəhbərləri bu barədə hökumətə də müraciət ediblər. Demirəm ki, sahibkarlıqla bağlı hər şey qaydasındadır və heç bir problem yoxdur. Amma bir-birinə rəqib olan bu supermarketlərin operativ şəkildə birgə müraciət imzalaması bir qədər başqa suallar da yaradır. Bu daha çox əzələ nümayişinə, qiymətlərin qalxmasına don geyindirməyə, şəffaflıq istiqamətində atılan addımlardan ehtiyatlanmağa bənzəyir. Marketlərdə qiymətlər son dövrlər kifayət qədər artıb. Gəlin görək, sabah vergi güzəşti edilsə, manatın məzənnəsi möhkəmlənsə qiymətlər nə qədər aşağı salınacaq. Təəssüf ki, əksər sahibkarlarımızda qiymətlərin endirilməsi mədəniyyəti formalaşmayıb. Bir daha qeyd edirəm ki, milli istehsalın, emal sənayesinin stimullaşdırılması kimi vergi güzəştlərinin tətbiqi mümkündür, ticarət xidmətlərində isə belə bir praktika məqsədəuyğun deyil.

Stimullaşdırıcı tədbirlərlə bağlı bir təklifim də var. Müxtəlif nominasiyalar üzrə «İlin sahibkarı» müsabiqəsi keçirilə bilər. Bu nominasiyalara «ən çox vergi ödəyən», «intizamlı vergi ödəyicisi», «ən çox iş yeri yaradan şirkət» və s. aid edilə bilər.

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**

# Bakıda kənd təsərrüfatı sərgisi keçiriləcək

Ölkəmizin paytaxtı kənd təsərrüfatı və qida məhsulları istehsalçılarının irimiqyaslı regional forumuna - Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı «CaspianAgro-2016» sərgisinə ev sahibliyi edəcək. May ayının ikinci ongünlüyündə keçiriləcək sərgi bu il 10 illik yubileyini qeyd edəcək. Bu sərgi həmişə mütəxəssislərin illik görüşü ilə yanaşı, kənd təsərrüfatı üzrə texnika və avadanlıqların, eləcə də məhsul və xidmətlərin nümayişi baxımından da etibarlı platforma olub. Azərbaycan hökumətinin təşkil etdiyi sərgi, həmçinin, Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən də dəstəklənir.

Bu ilki «CaspianAgro-2016» sərgisində Almaniya, Gürcüstan, İspaniya, İtaliya, Rusiya, Türkiyə və digər ölkələrdən kənd təsərrüfatı məhsul və avadanlıqlarının istehsalçıları və distribütorları iştirak edəcəklər. Sərgidə Hollandiya və İndoneziya milli pavilyonları ilə təmsil olunacaq, eləcə də İtalyanın çoxlu sayda şirkətləri öz məhsullarını təqdim edəcəklər.

Ənənəvi olaraq, «CaspianAgro-2016» sərgisində ən son avadanlıq və texnikalarla tanışlıq məqsədilə Azərbaycanın regionlarını təmsil edən sahibkar və fermerlər üçün infoturlar təşkil olunacaq. Sərgidə quşçuluq fabrikləri üçün avadanlıqlar, istixana avadanlıqları, suvarma sistemləri, heyvandarlıq sektoru üçün avadanlıqlar, substratlar, heyvan və balıq yemləri, toxumlar, mineral gübrələr, kənd təsərrüfatı texnikası və s. nümayiş etdiriləcək. Sevindirici haldır ki, bu sektorlarda xarici istehsalçılarla yanaşı, Azərbaycan şirkətləri də iştirak edirlər. Kənd təsərrüfatı texnikasına həsr olunmuş ekspozisiya isə öz zənginliyi ilə seçilməklə yanaşı, Bakı Ekspo Mərkəzinin həm daxilində, həm də xaricində quraşdırılmış platformalarda təşkil olunacaq.

Bu il «CaspianAgro» sərgisinə «Elektron kənd təsərrüfatı» və «Laboratoriya avadanlıqları» adlı iki yeni sektor daxil edilib. «Elektron kənd təsərrüfatı» sektoru çərçivəsində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ölkədə kənd təsərrüfatının ümumi monitorinqini, o cümlədən səmərəliliyin təhlilini aparmağa imkan verən elektron sistemi nümayiş etdirəcək. «Laboratoriya avadanlıqları» sektorunda isə digər avadanlıqlarla yanaşı, mikroskop və aparatlar, habelə məhsuldarlığı artırmaq və kənd təsərrüfatı məhsullarını müntəzəm qaydada araşdırmaq (məsələn: bitkinin çəkisini, zərərli maddələrə yoluxma dərəcəsini, habelə tərkibindəki nəmliyin faizini və s. öyrənmək) üçün istifadə olunan laboratoriya cihazları və qurğular təqdim olunacaq.

Beləliklə, «CaspianAgro-2016» sərgisi iştirakçıların ən son təmayüllərlə tanış olmalarına imkan yaratmaqla mövcud əməkdaşlıq əlaqələrini genişləndirmək və yeni işgüzar əlaqələr qurmaq üçün münasib şəraiti təmin edəcək. Bu isə ölkəmizin kənd təsərrüfatı sənayesinə qoyulan investisiyaların həcmini artırmaqla yanaşı, bu sahədə yeni texnologiyaların tətbiqini də stimullaşdıracaqdır.

Sərgidə Azərbaycan Respublikası Vergilər Nazirliyi də öz stendi ilə iştirak edəcək. Burada «195» Çağrı Mərkəzi, əmək müqavilələri ilə bağlı elanlar, fiziki şəxslərin gəlir vergisi, müəssisələrin əmlak vergisi, mədən, mənfəət vergisinin növləri, eləcə də vergi öhdəliklərinin yerinə yetirilməsi və bəyannamələrin təqdim edilməsi müddəti, ödəmə mənbəyində vergilərin tutulması və s. materiallar nümayiş olunacaq. Vergi ödəyicilərinə hesabatların elektron formada düzgün doldurulması və təhvil verilməsi qaydaları izah ediləcək, iştirakçıları maraqlandıran suallar Vergilər Nazirliyinin əməkdaşları tərəfindən cavablandırılacaq.

**Rəşad SADIQOV**

# Startap ekosisteminin inkişafına dəstək

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunda «Startap Azərbaycan» layihəsi çərçivəsində «Startap ekosisteminin inkişafında biznes-inkubatorların, akseleratorların və digər dəstək proqramlarının rolunun gücləndirilməsi» mövzusunda görüş keçirilib.

Tədbirdə startapların kommersiyalaşdırılması, investorlar klubunun yaradılması və informasiya texnologiyaları layihələrinə maliyyə yatırımı edən investorların maraqlarının qorunması, startap mədəniyyəti, biznes-inkubator və akseleratorlarda fəaliyyət göstərən müəllimlərin heyətinin stimullaşdırılması və digər məsələlər müzakirə edilib. Fondun icraçı direktoru Elçin Zeynalov bildirib ki, tədbirin məqsədi ölkədə startap hərəkatının genişlənməsi, innovativ layihələrin inkişafı və bu sahədə mövcud problemlər haqqında fikir mübadiləsi aparmaqdır. O, həmçinin, fondun startap layihələrə göstərdiyi dəstək barədə məlumat verib.

Görüşdə «Startap Azərbaycan» Hərəkatı, Yüksək Texnologiyalar Parkı, Qafqaz Universitetinin Texnoparkı, Memar-




lıq və İnşaat Universitetinin biznes-inkubatoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin «NextStep» İnnovasiya Mərkəzi, «Azercell»in Barama İnnovasiya Mərkəzi, «Bakcell»in AppLab İnnovativ Mobil İnkişaf Mərkəzi, «Baku Business Factory» və digər startap ekosisteminin üzvləri də çıxış ediblər.

Sonda startap layihələrinin inkişafı üçün konkret təkliflər müzakirə olunub, təqdim edilən təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun əsas məqsədi İKT sahəsində dövlət siyasətinin həyata keçirilməsinə yardım etmək, innovativ sahibkarlıq fəaliyyətini dəstəkləmək, intellektual biznes, innovasiya və elmi-tədqiqat layihələrini stimullaşdırmaq, müasir infrastrukturun inkişafına təkan vermək, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərmək, bu sahəyə yerli və xarici investisiyaların cəlb etməkdən ibarətdir.

İndiyədək fond tərəfindən 3 qrant müsabiqəsi keçirilib. Bu müsabiqələr çərçivəsində fonda təqdim edilən 461 layihələrdən 62-si bütün mərhələlərdən keçərək, Fondun Müşahidə Şurası tərəfindən qalib elan olunub. Qrant müsabiqələrinin qaliblərinə ümumilikdə 860 min manatdan artıq vəsait ayrılıb ki, bu da innovativ bizneslə məşğul olan gənc sahibkarların öz ideyalarını reallaşdırmasında önəmli rol oynayıb. Qrant müsabiqələrinin qaliblərinin 43 faizi yaşı 29-dan aşağı olan şəxslərdir.

# Azad ticarət zonası beynəlxalq səviyyədə təqdim edilib

## ABŞ şirkətləri bu sahəyə sərmayə qoymağa və daimi nümayəndəlik açmağa dəvət olunub

«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin mətbuat xidmətindən bildirilib ki, bu dəvət ABŞ-ın Vaşinqton şəhərində keçirilən «Transxəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi» adlı forumda iştirak edən Bakı Limanı tərəfindən edilib.

Forum Azərbaycanın, Qazaxıstanın, Türkiyənin ABŞ-dakı səfirlikləri və ABŞ-ın Mərkəzi Asiya-Qafqaz İnstitutu İpək Yolu Təhsil proqramı tərəfindən təşkil edilib. Forumun məqsədi Transxəzər Ticarət və Tranzit Marşrutu boyunca mövcud layihələr və biznes imkanları barədə məlumatlılığı artırmaq, Mərkəzi Asiya, Cənubi Qafqaz və Qara dəniz regionlarının Çin və Avropa arasında strateji əhəmiyyətli mühüm dəhliz olduğunu vurğulamaqdır.

«Dənizdən-dənizə: inteqrasiya edilmiş regional tranzit və logistika infrastrukturu» adlı paneldə çıxış edən Bakı Limanının baş direktoru Taleh Ziyadov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 mart 2016-cı il tarixli sərəncamı ilə təsis edilməsi planlaşdırılan azad ticarət zonası (ATZ) haqqında forum iştirakçılarına müfəssəl məlumat verib. Baş direktor ATZ-nin yaranması ilə Yeni Bakı Limanı (Ələt terminalı) ətrafında nəqliyyat və logistika infrastrukturunun quracağı, neft-kimya və farmasevtik klasterlərin yaradılacağı, müxtəlif çeşiddə malların istehsalı, qablaşdırılması, markalanması və sair kimi işlərin həyata keçiriləcəyini bildirib. T.Ziyadov ATZ-nin yaradılmasını şərtləndirən xüsusi hüquqi rejimin tətbiqi nəticəsində qısa müddətdə Yeni Bakı Limanına xarici investisiyanın cəlb olunacağını qeyd edib. O, tədbirdə iştirak edən ABŞ şirkətlərini fəaliyyətə başlayacaq azad ticarət zonasına sərmayə qoymağa və daimi nümayəndəliklərini açmağa dəvət edib.

Paneldə, eyni zamanda, Xəzər dənizi ilə Aralıq və Qara dənizləri birləşdirən inteqrasiya olunmuş regional tranzit və logistika infrastrukturunun perspektivlərindən söz açılıb və beynəlxalq bizneslərin regionun tranzit və logistika mərkəzi kimi üstünlüyünün istifadə etmək imkanları vurğulanıb.



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Amortizasiya ayırmaları

**İstehsal müəssisəsi tərəfindən il ərzində hazır məhsul istehsal edilsə də, həmin məhsullar satılmadığı üçün gəlir əldə olunmamışdır. Bu halda məhsul istehsalında istifadə edilmiş əsas vəsaitlərə hesablanmış amortizasiya ayırmaları gəlirdən çıxılırmı?**

Vergi Məcəlləsinin (VM) 108-ci maddəsinə əsasən, VM-in X fəslinə uyğun olaraq, gəlirdən çıxılmayan xərclərdən başqa gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır.

VM-in 99-cu maddəsində müəyyən edilmiş sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətində istifadə olunan əsas vəsaitlər üzrə amortizasiya ayırmaları bu maddənin müddəalarına uyğun şəkildə gəlirdən çıxılır (VM maddə 114.1).

Vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa, bu fəslə uyğun şəkildə tətbiq olunan uçot metodundan asılı olaraq gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə borcludur. Vergi ödəyicisinin istifadə etdiyi uçot metodunda xərclərin və daxilolmaların müddətləri və uçotu qaydasına dair bütün tələblər nəzərə alınmalıdır (VM, maddə 130.1).

Kassa metodu ilə uçot aparan vergi ödəyicisi gəliri əldə edəndə və ya gəlir onun sərəncamına verilən-də, bu gəliri nəzərə almalı və gəlirdən öz xərclərini yalnız bu xərcləri çəkdiyi zaman çıxmalıdır (VM, maddə 131).

Vergi uçotunun məqsədləri üçün vergi ödəyicisi kassa metodundan istifadə etdikdə xərcin çəkilməsi vaxtı, əgər bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, xərcin faktiki çəkildiyi vaxt sayılır (VM, maddə 133.1).

Hesablama metodu ilə uçot aparan vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq, gəlirini və xərcini müvafiq surətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə almalıdır (VM, maddə 134).

Vergi ödəyicisi vergi uçotunun aparılması üçün hesablama metodundan istifadə etdikdə əqdlə bağlı olan xərcin çəkilməsi vaxtı, bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisinin birmənalı olaraq maliyyə öhdəliklərini qəbul etdiyi, maliyyə öhdəliklərinin məbləğinin dəqiq qiymətləndirildiyi və əqddə və ya müqavilədə iştirak edən bütün tərəflər əqd və ya müqavilə üzrə özlərinin bütün öhdəliklərini yerinə yetirmişlər, yaxud müvafiq məbləğlər qeyd-şərtsiz ödənilməli olması şərtlərinin hamısına əməl etdiyi vaxt sayılır (VM, maddə 136.1).

Qeyd olunanlara əsasən:

İstehsal müəssisəsi tərəfindən il ərzində hazır məhsul istehsal edilməsinə baxmayaraq, satış həyata keçirilmədiyi və gəlir əldə olunmadığı üçün məhsul istehsalında istifadə edilmiş əsas vəsaitlərə hesablanmış amortizasiya ayırmaları gəlirdən çıxılmır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# TADAT qiymətləndirməsi ilə vergi inzibatçılığının güclü və zəif tərəfləri müəyyən edilir



*Xəbər verdiyimiz kimi, aprel ayının 18-20-i tarixlərində Vergi İnzibatçılığının Diaqnostik Qiymətləndirmə Aləti (Tax administration Diagnostic Assessment Tool) - TADAT Katibliyinin təlimçi qrupu Azərbaycan Respublikası Vergilər Nazirliyində olublar. TADAT metodologiyası üzrə inzibatçılığın qiymətləndirilməsində istifadə olunan meyarlar haqqında məlumatın əldə edilməsinə həsr olunmuş təlim-seminarda iştirak edən TADAT Katibliyinin rəhbəri Castin Zeyklə TADAT metodologiyasının üstünlükləri, qiymətləndirmə meyarları və digər məsələlər barədə söhbət etdik...*

***- Cənab Zeyk, TADAT Katibliyinin rəhbəri kimi neçənci ildən fəaliyyət göstərirsiniz və fəaliyyətinizin əsas məqsədləri barədə nə deyə bilərsiniz?***

- 2014-cü ilin sentyabr ayından TADAT Katibliyinə rəhbərlik edirəm. Katibliyin işinə nəzarətlə yanaşı, strategiyanın və iş planının hazırlanmasına cavabdehlik daşıyıram. TADAT ölkələrin vergi inzibatçılığının əsas komponentlərinin obyektiv qiymətləndirilməsi məqsədilə yaradılıb. Bu gün TADAT metodologiyasından inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin vergi orqanları istifadə edirlər. İndiyə kimi 22 ölkə TADAT qiymətləndirməsindən istifadə edib. İlk olaraq qiymətləndirməni Zambiyadan başladıq, daha sonra Norveç, Cənubi Afrika, Monteneqro və digər ölkələrdə həyata keçirdik. Təkcə ötən il 13 ölkədə qiymətləndirmə aparmışıq. Hazırda Serbiya və Efiopiyada qiymətləndirmə həyata keçiririk.

***- Qiymətləndirmə təşəbbüsü vergi orqanları tərəfindən irəli sürülür, yoxsa Katiblik tərəfindən?***

- İlk təşəbbüs vergi orqanlarından olur. TADAT üzrə bütün qiymətləndirmələr ölkənin müvafiq strukturları tərəfindən sponsor təşkilatlara və ya bizim Katibliyə rəsmi müraciət etməklə aparılır. Müraciətdə, həmçinin, qimətləndirmənin təklif edilən tarixləri də göstərilir, daha sonra gələn müraciətlər dəyərləndirilir. Qiymətləndirmənin hazırlıq mərhələsi bir qədər uzun olur. 6-8 həftə öncə qiymətləndirmə qrupu tərəfindən planlaşdırma aparılır. Bu mərhələdə ilk növbədə müraciət edən ölkədə əlaqələndirici şəxs müəyyənləşdirilir və rəsmi yazışma aparılır. Daha sonra statistik və digər məlumatların əldə edilməsi məqsədilə qiymətləndirilən vergi administrasiyasına sorğu anketi və iş proqramı göndərilir. Qiymətləndirmə mərhələsi isə qiymətləndirici qrup tərəfindən 2-3 həftə ərzində aparılır. Bu müddət ərzində hər fəaliyyət sahəsi üzrə əvvəlcədən hazırlanmış suallar əsasında və müvafiq strukturlarla görüşlərin təşkili edilməsi yolu ilə qiymətləndirmə aparılır və yekun hesabat hazırlanır. Qiymətləndirmədən sonra hazırlanan son hesabat layihəsi qiymətləndirici qrup tərəfindən əvvəlcə Katibliyə göndərilir, orada hesabatın bütün standartlara və keyfiyyətə uyğunluğu qiymətləndirilir. Daha sonra qiymətləndirilən administrasiyanın hesabat ilə bağlı mövqeyi öyrənilir və qeydlər hesabata daxil edilir. Mövqelərdə kəskin fərq olduqda təqdirdə, hesabatda bununla bağlı qeyd aparılır.

***- Qiymətləndirilmə zamanı əsas nəyə diqqət yetirilir?***

- Qiymətləndirmə vergi orqanının fəaliyyət göstərdiyi 9 əsas istiqamət üzrə həyata keçirilir:

- Vergi ödəyicilərinin uçot məlumatlarının tamlığı;
- Vergidən yayınma risklərinin idarə edilməsi;
- Könüllü əməletmə səviyyəsinin artırılması;
- Vergi bəyannamələrinin vaxtında təqdim edilməsi;
- Vergilərin vaxtında ödənilməsi;
- Bəyannamələrdəki məlumatların dəqiqliyi;
- Vergi mübahisələrinin effektiv həlli;
- Vergi gəlirlərinin effektiv idarə edilməsi;
- Hesabatlılıq və şəffaflıq.

Bu fəaliyyət sahələri ümumilikdə 47 ölçü meyarından ibarət olan 28 indikator vasitəsilə qiymətləndirilir. Qiymətləndirmə ABCD şkalası (A - ən yüksək, D - ən aşağı qiymət) üzrə aparılır. Vergi administrasiyasına müəyyən olunan qiymətlər geniş əsaslandırılma ilə müşayiət olunur. Qeyd edim ki, qiymətləndirmə bir neçə təcrübəli təlimçilər tərəfindən həyata keçirilir.

***- Bəs təlimçilər necə seçilir?***

- Təlimçilər iki qrupa bölünür. Birinci qrup TADAT təlimçiləri adını qazananlardır. Təlimçi adını qazanmaq istəyən şəxs vergi inzibatçılığında 5 il iş təcrübəsinə malik olmalı, beynəlxalq praktika ilə yaxından tanış olmalı, texniki yardım proqramlarında iştirak etməlidir. Onlar imtahan verdikdən sonra sertifikat alıb TADAT təlimçisi adına layiq görülürlər. İkinci qrup isə TADAT təlimi keçən şəxslərdir. Onların beynəlxalq arenada təcrübəsi yoxdur və texniki yardım proqramında iştirak etməyiblər, sadəcə, təlimin iştirakçısı kimi sertifikat alıblar. Yeri gəlmişkən, sertifikat almaq üçün imtahan verməK lazımdır. İmtahanı uğurla verib sertifikat almış iştirakçılar hansısa ölkədə TADAT qiymətləndirməsində iştirak etməklə, beynəlxalq təcrübə toplamaqla TADAT təlimçisi adını qazana və bundan sonra qiymətləndirmədə iştirak edə bilər. Hazırda TADAT təlimçiləri və təlimdə iştirak edənlərin sayı ümumilikdə 302 nəfərdir.

***- TADAT qiymətləndirilməsinin faydaları barədə nə deyə bilərsiniz?***

- Ən başlıcası, bu qiymətləndirmə ilə vergi orqanlarında inzibatçılıq tədbirlərinin nisbətən güclü və zəif tərəfləri müəyyən edilir. Yəni vergi orqanı bilir ki, ölkəsinin vergi sistemində vəziyyət hansı həddədir. Bundan əlavə, vergi orqanlarının əməkdaşlıq etdiyi qurumlar üçün vergi orqanının cari durumuna dair ümumi mənzərəni görmək asanlaşır, ardıcıl təkrar qiymətləndirmələrin aparılması ilə islahatlar prosesinə nəzarət olunur.

***- Azərbaycanda da belə bir qiymətləndirmənin aparılmasını zəruri hesab edirsinizmi?***

- Əlbəttə, Azərbaycanda da qiymətləndirməyə ehtiyac var. Çünki qiymətləndirmə ölkənin vergi sisteminin güclü və zəif tərəflərinin müəyyən edilməsinə və bununla da gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə imkan yaradacaq. Doğrudur, Azərbaycanın Vergilər Nazirliyi tərəfindən TADAT qiymətləndirməsi ilə əlaqədar hələlik bizə müraciət daxil olmayıb. Amma hesab edirəm ki, ölkənizdə TADAT metodologiyası üzrə inzibatçılığın qiymətləndirilməsində istifadə olunan meyarlar haqqında məlumatın əldə olunması məqsədilə keçirilən seminar onu göstərir ki, Azərbaycanda TADAT qiymətləndirilməsinə böyük önəm verilir.

**Aytən NƏBİYEVA**

# İxracın təşviqi üçün ticarət evləri yaradılır

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) bu sahədə həyata keçirilən siyasətə uyğun olaraq, xarici ölkələrin iqtisadiyyatının tərkibini, strukturunu araşdırmaq, respublikamızdan qonşu ölkələrin bazarlarına hansı məhsulların ixracını müəyyənləşdirmək istiqamətində təhlillərə başlayıb. Təhlillər əsasında ölkə daxilində həmin ixrac məhsullarının istehsalının təşviqi, dövlətin maliyyə dəstəyinin artırılması, yerli və xarici investorların cəlb edilməsi, istehsal olunmuş məhsulların «Made in Azerbaijan» brendi üzrə tanıdılması və digər tədbirləri nəzərdə tutan «Yol xəritəsi» layihəsi hazırlanacaq. Layihədə coğrafi yerləşmə və brendləşmə, səriştəli kadrların və xarici bazarların mövcudluğu kimi üstünlüklər nəzərə alınıb.

AZPROMO-nun rəhbəri Rüfət Məmmədovun sözlərinə görə, xarici bazarlara giriş üçün müxtəlif variantlar üzərində iş aparılır. Bu, ixrac məhsulunun rəqabətə dözümlülüyündən, nəqliyyat, daşıma və gömrük xərclərindən və digər amillərdən asılıdır. Ona görə də xarici bazarlar araşdırılarkən yerli sahibkarlarla birbaşa əlaqə əsas götürüləcək. Hazırda bu sahədə müəyyən çətinliklər mövcuddur. Azərbaycan mallarının xarici bazarlardakı tələblərə cavab verməməri üçün qablaşdırılma və markalanmanın keyfiyyətinin yüksəldilməsi məqsədilə dövlətin dəstəyi ilə bu sahədə fəaliyyət göstərən müəssisələrin sayı artırılacaq.

Azərbaycanda istehsal olunan məhsulların xarici bazarlara çatdırılmasının asanlaşdırılması, nəqliyyat xərclərinin azaldılması, yerli məhsulların xarici bazarlarda rəqabətə davamlılığının təmin edilməsi məqsədilə Azərbaycanda və xarici bazarlarda logistik mərkəzlərin təşkili, ixracatçı birlik və assosiasiyaların yaradılmasının təşviqi nəzərdə tutulub. Qarşıdakı 5 il ərzində qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan ixracın maliyyələşdirilməsi və sığortası mexanizminin yaradılması, ixracla bağlı vaxt və maliyyə xərclərinin azaldılması, prosedurların sadələşdirilməsi, regionlarda fəaliyyət göstərən xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinə ixracla bağlı məsləhət xidmətlərinin və təlim proqramlarının təşkili, ixrac əməliyyatları aparan sahibkarlıq subyektləri üçün həvəsləndirici tədbirlərin keçirilməsi də nəzərdə tutulub.

Plana əsasən, Avropa və MDB ölkələrinin əksəriyyətində Azərbaycana məxsus ticarət evləri yaradılacaq. İxrac mallarının geniş şəkildə tanıdılmasında və satış bazarlarının təşkilində mühüm rol oynayan bu cür qurumlar Rusiya, Ukrayna və Qazaxıstanda artıq yaradılıb. Onların sayının genişləndirilməsi və Avropa ölkələrində daimi fəaliyyət göstərməsi üçün həm dövlət, həm də özəl ticarət qurumları tərəfindən iş aparılır. Bununla yanaşı, qonşu ölkələrin də Azərbaycan ticarət evləri və nümayəndəlikləri şəbəkəsinin yaradılması planlaşdırılır.

**E. CƏFƏRLİ**

# Gənclər dövlət qayğısından bəhrələnir

Son onilliklə 2005-2009-cu və 2011-2015-ci illəri əhatə edən «Azərbaycan gəncliyi» dövlət proqramlarının uğurla həyata keçirilməsi, Prezident yanında Gənclər Fondunun yaradılması, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident mükafatının təsis edilməsi gənclərin hərtərəfli inkişafını stimullaşdırır. «Gənclər evləri» xüsusilə regionlarda yaşayan yeniyetmələrin maraq dairəsinin genişləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili üçün yeni imkanlar yaradır. Məşğulluğun təmin olunması və xüsusilə gənc sahibkarlara dəstək məqsədilə biznes inkubatorların, texnoparkların yaradılması çox əlamətdar hadisələrdir.

İqtisadiyyat Nazirliyindən verilən məlumata əsasən, Sahibkarlığa Kömək Milli Fondu indiyədək təxminən 4900 gənc sahibkara 353,6 milyon manat güzəştli kredit vermişdir. Həmin kreditlər hesabına isə 15000-dək yeni iş yeri yaradılmışdır. 2016-cı ilin 1-ci rübündə 58 gənc sahibkara 16,4 milyon manat məbləğində güzəştli dövlət krediti verilmişdir. Fond tərəfindən regionlarda və Bakı şəhərinin qəsəbələrində keçirilən işgüzar forumlar sahibkarlıq fəaliyyəti ilə, xüsusilə kiçik sahibkarlıq məşğul olan gənclərin iqtisadi aktivliyinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərir.

İqtisadiyyat Nazirliyi tərəfindən Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində biznes inkubatoru yaradılıb. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclər üçün hər cür şəraitin yaradıldığı biznes inkubatorunda gənclərə sahibkarlıq fəaliyyətinə başlamaq üçün nəzəri və praktik məlumatlar verilir, biznesin planlaşdırılması və idarə edilməsi, investisiya layihələrinin və biznes-planların hazırlanması, marketinq araşdırmaları, tərəfdaşlarla əlaqələrin qurulması və digər məsləhət xidmətləri göstərilir.

Biznes inkubatorun iştirakçıları İqtisadiyyat Nazirliyinin, Gənclər və İdman Nazirliyinin və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələrinin iştirak etdiyi müsabiqə komissiyası tərəfindən seçilir. Gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasında maarifləndirmə tədbirləri əhəmiyyətli rol oynayır. İqtisadiyyat Nazirliyinin tabeliyində olan Bakı Biznes Tədris Mərkəzinin fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz gənc sahibkarların və sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyənlərin maarifləndirilməsi, onlara zəruri nəzəri biliklərin və beynəlxalq təcrübənin aşılanmasıdır.

Biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Almaniyanın Federal İqtisadiyyat və Energetika Nazirliyi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumuna müvafiq olaraq, ötən il iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 36 sahibkar və gənc menecer Almaniyanın müxtəlif şəhərlərində ixtisasartırma kursu keçib.

**F. İKRAMQIZI**

# Əməkdaşlığın əhatəsi genişlənir

Azərbaycanda biznes sahəsində yoxlamaların sayının azaldılması və sahibkarlığın inkişafı ilə bağlı aparılan islahatları yüksək qiymətləndirən Beynəlxalq Maliyyə Korporasiyası (BMK) kiçik və orta sahibkarlığa dəstək məqsədilə yeni təkliflər irəli sürüb. Korporasiyanın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Aliyə Əzimova bildirib ki, təkliflər sırasında dövlət xidmətlərinin keyfiyyətinin artırılması önəmli yer tutur. Bu,əsasən, infrastrukturun inkişaf etdirilməsi, işçi qüvvəsinin, peşə və ali təhsilin keyfiyyətinin artırılması, innovasiyalar və tədqiqatlar üzrə potensialın stimullaşdırılması, habelə rəqabətli ixracın təşviq olunmasını əhatə edir.

BMK nümayəndəsi digər təkliflər: əlverişli biznes mühitinin təşviqi, yüksək səviyyədə əmlak hüquqlarının təmin olunması, müqavilələrin yerinə yetirilməsi və şəffaf məhkəmə sisteminin təşkili, şirkətlərə qarşı bərabərhüquqlu münasibəti özündə əks etdirən cəlbedici investisiya mühitinin yaradılması barədə də məlumat verib. Bildirib ki, Azərbaycanda əməkdaşlıq üçün əlverişli iqtisadi mühit var, indiyədək tərəflər arasında həyata keçirilmiş strategiya uğurlu nəticələrlə yadda qalıb. Son 10 ildə Azərbaycanla əməkdaşlıq strategiyası çərçivəsində təşkilat tərəfindən qeyri-neft sektorunda 50-dən artıq uzunmüddətli layihə maliyyələşdirilib, bankların vasitəçiliyi ilə 300 mindən çox orta və kiçik sahibkara dəstək verilib. Bu sahədə fəaliyyətini davam etdirəcəyini bəyan edən qurum tərəfindən kiçik və orta sahibkarlıq sektoruna diqqətin gücləndirilməsi, məsləhət xidmətlərinin göstərilməsi, kənd təsərrüfatı və informasiya-kommunikasiya texnologiyaları sektorunda əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Qeyd edilib ki, korporasiya Azərbaycanda özəl sektorun inkişafına dəstək vermək məqsədilə yeni strategiya hazırlamaq niyyətindədir. Ölkədə rəqabətqabiliyyətli bazarların inkişaf etdirilməsi istiqamətində dövlət və özəl sektorun iştirakı ilə birgə layihə həyata keçiriləcək.

**ELBRUS**

# Vergi öhdəliyinin yerinə yetirilməsi müddətləri

Vergi qanunvericiliyində hər bir vergiyə dair ödənilmə müddətləri müəyyən edilmişdir. Ödəniş müddəti təqvim tarixi və ya illərlə, rüblərlə, aylarla, dekadalarla, həftələrlə və günlərlə hesablanan dövrün qurtarması ilə və ya baş verməli hadisə, yaxud edilməli olan hərəkət, proses göstərilməklə müəyyən olunur. Bu müddətlərdən kənara çıxmaq qanunvericiliyin pozulmasıdır və belə hallara yol verən vergi ödəyiciləri müvafiq maliyyə sanksiyaları ilə cəzalandırılırlar.

Bundan başqa, vergiləri vaxtında ödəmədiyinə görə, vergi ödəyicisindən qanunla müəyyən edilmiş qaydada və şərtlərlə faiz tutulur. Vergi orqanları vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra 3 il ərzində vergi ödəyicisinin vergisini, faizləri və maliyyə sanksiyasını hesablamaq və hesablanmış məbləği yenidən hesablamaq, verginin, faizlərin və maliyyə sanksiyalarının hesablanmış (yenidən hesablanmış) məbləğini vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra 5 il ərzində tutmaq hüququna malikdir. Vergi ödəyicisi isə vergi hesabatı dövrü qurtardıqdan sonra 3 il ərzində düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sanksiyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini 5 il ərzində tələb etmək hüququna malikdir.

Bəs vergilərin müəyyən edilmiş ödənilmə müddətinin dəyişdirilməsi mümkündürmü? Bu məsələ ilə bağlı Vergi Məcəlləsində müvafiq qaydalar müəyyənləşdirilmişdir. Həmin qaydalara əsasən, vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri aşağıda göstərilən halların biri baş verdikdə, müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər:

Vergi ödəyicisindən asılı olmayaraq baş verən təbii hadisələr, fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinin zərər görməsi vergi öhdəliklərinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsinə əsas ola bilər. Bu halda, vergi ödəyicisi hadisənin baş verməsi və onun nəticəsində dəymiş zərərin məbləği barədə müvafiq dövlət orqanlarına arayışlar təqdim etməlidir.

Vergini birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi ortaya çıxarsa, vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri dəyişdirilə bilər. Bunun üçün vergi ödəyicisi vergi orqanına müraciət edilmə tarixinə kassasında, milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsaitlərin qalığı, debitorların və kreditorların adı, VÖEN göstərilməklə debitor və kreditor borcları barədə arayışları təqdim etməlidir. Ancaq bütün hallarda vergilərin ödənilmə müddətinin dəyişdirilməsi mövcud olan öhdəliyi ləğv etmir və yeni vergi öhdəliyi yaratmır.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi yazılı şəkildə əsaslandırılmış və onun tərəfindən vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciətini vergi orqanına göndərir. Müraciət vergi növü (növləri) üzrə onların müvafiq hesabat dövri üçün qanunvericiliklə müəyyən edilmiş ödəmə müddətinədək təqdim olunmalıdır. Müvafiq icra hakimiyyəti orqanı 30 gün müddətində bu müraciətə baxır və əsaslar olduğu halda, müddətin uzadılması barədə qərar qəbul edir.

Yuxarıda qeyd edilən əsaslar olduqda, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti vergi ili ərzində 1 aydan 9 ayadək uzadıla bilər. Həmin müddət ərzində vergi ödəyicisinə faizlər hesablanmır.

Onu da qeyd edək ki, vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərar həmin qərarda müəyyən edilmiş müddətdən qüvvəyə minir. Vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

- vergi ödəyicisi vergi öhdəliyini vaxtından əvvəl yerinə yetirdikdə;
- vergi ödəyicisi barədə cinayət işi qaldırıldıqda;
- vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərarının şərtlərinə əməl edilmədikdə.

Vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar vermiş vergi orqanı 5 gün ərzində vergi ödəyicisinə bu barədə məlumat verməlidir. Vergi ödəyicisi məlumatı aldığı tarixdən 30 gün müddətində borc məbləğini və ödəmə gününə qədər həmin məbləğə qanunvericiliyə uyğun olaraq hesablanmış faizləri büdcəyə ödəməlidir.

**Bütün hallarda vergilərin ödənilmə müddətinin dəyişdirilməsi mövcud olan öhdəliyi ləğv etmir və yeni vergi öhdəliyi yaratmır**

**Rəşad SADIQOV**

# Gənclərin məşğulluğuna böyük əhəmiyyət verilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT İnkişaf Proqramı arasında SYSLAB (Yenilik və məşğulluq üzrə sistem laboratoriyası) metodologiyası üzrə gənclərin əmək bazarına inteqrasiyasının dəstəklənməsinə yönələn növbəti - «Azərbaycanda innovasiyanın və məşğulluğun inkişafı» layihəsi imzalanıb. İmzalanma mərasimində çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov respublikada işsizlik səviyyəsinin 5 faizdən bir qədər yuxarı, gənclər arasında isə təqribən 10 faiz təşkil etdiyini bildirib. Qeyd edib ki, gənclər arasında məşğulluq səviyyəsinin artırılması yönündə həyata keçirilən tədbirlərdə qabaqcıl beynəlxalq təcrübədən irəli gələn innovativ yanaşmaların tətbiqi də diqqətdə saxlanılır: «Bu sahədə BMT İnkişaf Proqramı ilə birgə son illərdə icra olunmuş «Azərbaycanda innovasiyanın və məşğulluğun İnkişafı» layihəsi xüsusi önəm kəsb edir. Layihə yeni yanaşma metodlarını tətbiq etməklə yüksək ixtisaslı gənc kadrların iş axtarmaq bacarıqlarının inkişafına və onların əmək bazarına inteqrasiyasına dəstək məqsədinə yönəlib. BMT İnkişaf Proqramının və Norveçin SYSLAB şirkətinin dəstəyi ilə icra edilən layihə çərçivəsində Bakı, Sumqayıt və Gəncə şəhərlərində müvafiq təlim-tədris mərkəzləri yaradılıb. Həmin mərkəzlərdə ilk dəfə işaxtaran ali təhsilli gənclərdən ibarət ümumilikdə 452 nəfər şəxsə təlimlər keçilib. Təlimlər zamanı gənclərdə müasir üsullar, innovativ metodlar əsasında iş axtarışı bacarıqları formalaşdırılıb. Nəticədə həmin gənclərdən 358 nəfəri və ya 80 faizə yaxını yeni qazandıqları bacarıqlardan istifadə edərək, müxtəlif dövlət və özəl müəssisələrdə münasib iş yerləri ilə təmin olunublar».

SYSLAB konsepsiyasının müasir işaxtarma metodlarını, sahibkarlıq, sistemli biznes, ofis bacarıqlarının inkişafı və s. kimi sahələri əhatə etdiyini bildirən S.Müslümov yeni layihənin Azərbaycanda innovasiyanın təşviqi, işsizlik səviyyəsinin azaldılması və texnologiyaya əsaslanan kiçik və orta sahibkarlığın inkişafına yönəldiləcəyini diqqətə çatdırıb: «2017-ci ilin sonuna qədər davam edəcək bu layihə çərçivəsində Gəncə şəhərində və Masallı rayonunda SYSLAB metodologiyası üzrə təlim kursları təşkil olunacaq, məşğulluq mərkəzlərində qeydiyyata alınmış işsiz şəxslər bu kurslara cəlb ediləcək. Təlim kursu zamanı iştirakçıların xüsusi ehtiyacları üzrə onlara əmək bazarına çıxış imkanı qazana bilmələri üçün kömək məqsədilə fərdi sessiyalar keçiriləcək. Layihə çərçivəsində digər müvafiq tədbirlərlə yanaşı, fərdi sahibkarlığa maraq göstərənlər üçün biznes fəaliyyətinin qurulması, həmçinin hər bir qrup üçün «MS Office» proqramları üzrə təlim kurslarının, məşğulluq mərkəzlərinin işçi heyəti üçün SYSLAB metodologiyası üzrə qısa təlimin aparılması da nəzərdə tutulur».



**AYTƏN**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma və tikinti işləri 2019-2020-ci illərə qədər davam etdiriləcək.

Azərbaycan ilə Türkiyə arasında dəmir yolları və infrastruktur sahəsində əməkdaşlıq əlaqələrini genişləndirmək məqsədilə görüşlər keçiriləcək.

İqtisadiyyat Nazirliyinin İstehlak Mallarının Ekspertizası Mərkəzinin Mərkəzi qida və qeyri-ərzaq mallarının sınaq laboratoriyasının akkreditasiya müddəti 2021-ci il aprelin 15-dək uzadılıb.

Əmlak Məsələləri Dövlət Komitəsində mayın 2-dən etibarən Daşınmaz Əmlakın Qeydiyyatı, Kadastrı və İdarəedilməsi Sistemi istismara verilib.

Dubayda dünyanın inkişaf etmiş turizm ölkələrindən 500-dək şirkətin qatıldığı beynəlxalq sərgidə Azərbaycan pavilyonu böyük maraq doğurub.

İctimai birliklərin mədən sənayesində şəffaflığın artırılması Koalisiyasının ümumi yığıncağı keçirilib.

# Sahibkarlara investisiya təşviqi sənədi veriləcək

Prezident İlham Əliyev «İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası»nın təsdiq edilməsi haqqında fərman imzalayıb. Sənədə əsasən, investisiya təşviqi sənədinın alınması qaydaları və forması, sahibkarlar üçün nəzərdə tutulan güzəştlərlə bağlı məsələlər müəyyən edilib. Fərmanda «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Qanunun tətbiqi ilə bağlı bir sıra məsələlər də öz həllini tapıb. Bununla da sahibkarlar üçün investisiya təşviqi sənədinin alınması üçün hüquqi baza yaradılıb və yaxın günlərdə bu sənədin əldə edilməsi mümkün olacaq.

### *İnvestisiya təşviqi sənədini kimlər ala bilər?*

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, təsdiqedici sənədi almaq üçün sahibkar «Lisenziyalar və icazələr haqqında» Qanunun 18.1-ci maddəsinə uyğun olaraq, İqtisadiyyat Nazirliyinə (İN) ərizə ilə müraciət etməlidir. Ərizə ilə birlikdə idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların siyahısı, siyahıda idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların ABŞ dolları ilə dəyəri, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodu, adı, ölçü vahidində miqdarı göstərilməlidir. Bundan başqa, idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların alınması ilə bağlı müqavilənin və investisiya təşviqi sənədinin surəti İN-ə təqdim olunacaq.

### *Vergi və gömrük güzəştləri*

Təsdiqedici sənəd sahibkara müvafiq texnika, texnoloji avadanlıqların və qurğuların ölkəyə idxalı zamanı bir sıra vergi və gömrük güzəştlərini nəzərdə tutur. Qanuna əsasən, investisiya təşviqi sənədi - investisiya fəaliyyətini həyata keçirən hüquqi şəxslərə və fərdi sahibkarlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydaya uyğun olaraq verilən, Vergi Məcəlləsinin 102.1.23-cü, 106.1.17-ci, 164.1.26-cı, 199.11-ci və 207.5-ci maddələrində və «Gömrük tarifi haqqında» Qanunun 20.0.17-ci maddəsində nəzərdə tutulan güzəştlərdən istifadə hüququ verir.

Qaydalara əsasən, investisiya təşviqi sənədini aldığı andan fərdi sahibkarın əldə etdiyi gəlirin, hüquqi şəxsin isə əldə etdiyi mənfəətin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad olunacaq. Həmçinin, sənədi almış hüquqi şəxslər və fərdi sahibkar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının bu sənədi aldıqları andan 7 il müddətinə ƏDV-dən azad edilməsi nəzərdə tutulub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə həmin müddətə torpaq vergisi ödəməkdən azad ediləcəklər. Sənədi almış şəxs vergi güzəştlərinin tətbiq edildiyi dövrdə investisiya layihəsinə aid olmayan fəaliyyət göstərdikdə isə həmin fəaliyyətlə bağlı gəlirlərin və xərclərin uçotu ayrıca aparılacaq. Həmin fəaliyyət sahəsi üzrə sahibkarın əldə etdiyi gəlirlərdən vergilər Məcəllə ilə müəyyən edilmiş ümumi qayda əsasında ödəniləcək.

«Gömrük tarifi haqqında» Qanunda müəyyən olunmuş güzəştlərə əsasən, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə 7 il müddətinə gömrük rüsumlarından azad ediləcəklər. Sənaye texnoparklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının da 7 il ərzində gömrük rüsumlarından azad olunması nəzərdə tutulub.

### *Təşviq sənədi sahibkardan geri alına bilər*

Sahibkarlar bu sənədi aldıqdan sonra onlar üçün təmin edilmiş əlverişli şəraitdən və imtiyazlardan istədikləri kimi istifadə edə bilməyəcəklər. Onların fəaliyyəti daim nəzarətdə olacaq və investisiya təşviqi sənədindən hansı məqsədlər üçün istifadə etmələri barədə araşdırmalar aparılaraq ümumi hesabat hazırlanacaq. Ona görə də təsdiqedici sənədin istənilən vaxt ləğvi istisna olunmur. Sahibkar təsdiqedici sənəd əsasında idxal edilmiş texnikanı, texnoloji avadanlıqları və qurğuları təyinatına uyğun olmayan məqsədlər üçün istifadə etdikdə, yaxud investisiya layihəsinin həyata keçiriləcəyi ərazidən kənarlaşdırılması və ya üçüncü şəxsə verilməsi hallarına yol verdikdə, bununla bağlı ona edilmiş xəbərdarlığa əsasən, həmin pozuntuların aradan qaldırılmadığı təqdirdə, investisiya təşviqi sənədi ləğv olunacaq. Bununla da sahibkar qanunla nəzərdə tutulan güzəştlərdən istifadə hüququnu itirəcək. İqtisadiyyat Nazirliyi bu hallar barədə Vergilər Nazirliyini və Dövlət Gömrük Komitəsini 3 gün ərzində məlumatlandıracaq. Bununla da həmin sahibkarlar üçün Vergi Məcəlləsinin və «Gömrük tarifi haqqında» Qanunun müvafiq maddələri üzrə nəzərdə tutulmuş güzəşt və imtiyazlar hüquqi qüvvəsini itirəcək, onlar vergi və gömrük rüsumunu adi qaydada ödəyəcəklər.

Təsdiqedici sənədin verilməsi barədə ərizəyə baxılarkən idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların bilavasitə istehsalın, işin və xidmətin təşkili ilə bağlı olması və investisiya təşviqi sənədini almaq üçün təqdim edilən investisiya layihəsinə (biznes plana) uyğunluğu araşdırılacaq. Beləliklə, nazirlik ərizəyə və digər sənədlərə onun qeydiyyata alındığı tarixdən ən geci 7 iş günü müddətində baxacaq və tələblərə uyğun olduqda təsdiqedici sənədi sahibkara verəcək. Nazirlik verdiyi təsdiqedici sənəd barədə məlumatı 3 iş günü müddətində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə təqdim etməlidir. Sahibkarın təqdim etdiyi ərizədə və ona əlavə olunmuş sənədlərdə göstərilən məlumatlar tələblərə cavab vermədikdə, habelə onlarda aradan qaldırılması mümkün olmayan çatışmazlıq aşkar edildikdə İN təsdiqedici sənədin verilməsindən imtina aktı qəbul etmək hüququna malikdir. Bununla bağlı sahibkara 2 gün müddətində cavab veriləcək. Amma sahibkara həmin sənədi əldə etmək üçün daha bir şans veriləcək: təsdiqedici sənədin verilməsi barədə ərizədə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldığı halda, sahibkarın yenidən ərizə ilə müraciətinə müsbət baxıla bilər.

### *Hər region üzrə investisiyanın məbləği müxtəlifdir*

İnvestisiya təşviqi sənədinin verilməsi üçün investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri də müəyyənləşib. 5 region üzrə qruplaşdırılan ərazilərdə investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı məbləğ müəyyənləşib. Birinci regiona Bakı şəhəri (Bakıətrafı qəsəbələr istisna olmaqla), ikinci regiona Bakıətrafı qəsəbələr və Abşeron rayonu, üçüncü regiona Sumqayıt şəhəri, Gəncə şəhəri, dördüncü regiona 1, 2, 3 və 5-ci regionlara aid edilməyən şəhər və rayonlar, beşinci regiona Naxçıvan Muxtar Respublikası,Füzuli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi, Naftalan, Goranboy, Göygöl, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Ağstafa, Lerik, Yardımlı, Balakən, Qusar rayonları daxil edilib.

Sahibkarlara investisiya təşviqi sənədinin verilməsi üçün birinci regiondan beşinci regiona doğru iqtisadi fəaliyyət sahələri üzrə tələb olunan investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ azalır. Məsələn, Bakıda elektrik avadanlığının istehsalı ilə əlaqədar investisiya təşviqi sənədinin alınması üçün minimum 5 milyon, Bakıətrafı qəsəbələr və Abşeron rayonunda minimum 3 milyon manat investisiyanın qoyulması tələb edilirsə, beşinci region üzrə bununla bağlı minimum tələb 500 min manat həcmindədir. Yaxud Bakıda geyim istehsalı ilə əlaqədar investisiya təşviqi sənədinin alınması üçün minimum 5 milyon manat sərmayə qoyulması lazım gəlirsə, beşinci regiona daxil olan rayonlarda bu məbləğin 200 min manat olması yetərli hesab olunur.

**İqtisadiyyat Nazirliyi təsdiqedici sənəd barədə məlumatı 3 iş günü müddətində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə təqdim etməlidir**

**Elbrus CƏFƏRLİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları» kimlərə şamil edilir...

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Q-03 nömrəli 03 fevral 2016-cı il tarixli qərarı ilə yeni «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları» (irəlidə «Qaydalar» adlanır) təsdiq edilmişdir. Bu Qaydalar ilə Maliyyə Nazirliyinin 13 yanvar 2009-cu il tarixli İ-06 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 30 yanvar 2009-cu il tarixdə dövlət qeydiyyatına alınmış (şəhadətnamə №3432) «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları», habelə Maliyyə Nazirliyinin 06 noyabr 2009-cu il tarixli İ-140 nömrəli əmri ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyi tərəfindən 17 noyabr 2009-cu il tarixdə dövlət qeydiyyatına alınmış (şəhadətnamə №3483) «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»na dəyişikliklər» ləğv edilmişdir.

Qaydalara görə, kiçik sahibkarlıq subyekti sadə qaydada doldurulması mümkün olan 3 formada mühasibat uçotu registrlərini tərtib etməlidir. Bu formalara «Kiçik sahibkarlıq subyektlərinin aktivlərinin hərəkəti üzrə cədvəl», «Kiçik sahibkarlıq subyektlərinin öhdəliklərinin hərəkəti üzrə cədvəl» və «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması kitabı» aiddir. Bu cədvəllər (registrlər) kağızda və ya elektron məlumat daşıyıcılarında Azərbaycan dilində tərtib edilməlidir. Kiçik sahibkarlıq subyektinin rəhbəri mühasibat xidmətinin həyata keçirilməsini təmin edən müvafiq struktur bölmə təşkil etməklə işçiləri (baş mühasib, mühasib və kassir) cəlb edir. Lakin kiçik sahibkarlıq subyektinin rəhbəri baş mühasib və ya mühasib cəlb etmədikdə, sadələşdirilmiş uçotun aparılmasını bu sahədə ixtisaslaşdırılmış təşkilat vasitəsilə təşkil etmək və ya bu uçotu şəxsən özü tərəfindən aparmaq hüququna malikdir.

Bəs bu Qaydalar konkret olaraq hansı şəxslərə şamil edilir? Təsərrüfat subyektinin kiçik sahibkarlıq subyekti kimi hesab edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli 215 nömrəli Qərarı (irəlidə «Qərar» adlanır) ilə təsdiq edilmiş «İri, orta və kiçik sahibkar meyarları»na əsasən müəyyənləşdirilir. Bunun üçün Qərarda əks olunan «işçilərin orta siyahı sayı» və «illik gəlir» meyar göstəricilərinə diqqət yetirmək lazımdır. Qərara görə, sahibkarların kiçik, orta və iri sahibkar kimi müəyyənləşdirilməsi üçün «işçilərin orta siyahı sayı» və «illik gəlir» meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür. Qərara istinad etsək aydın olur ki, sahibkarın (hüquqi şəxsin və fərdi sahibkarın) kiçik sahibkar kimi müəyyənləşdirilməsi üçün işçilərinin orta siyahı sayı 25 nəfərədək və illik gəliri 120.000 manatadək olmalıdır, yəni hər iki şərt təmin edilməlidir. Əgər kiçik sahibkarın «işçilərin orta siyahı sayı» göstəricisi 25 nəfərdən çox və «illik gəlir» göstəricisi 120.000 manatadək (120000 manat daxil) və ya əksinə, «işçilərin orta siyahı sayı» göstəricisi 25 nəfərədək (25 nəfər daxil) və «illik gəlir» göstəricisi 120.000 manatdan çox olduqda, həmin sahibkar kiçik sahibkarlıq subyekti hesab edilə bilməz və belə sahibkarlıq subyekti meyar göstəricilərindən asılı olaraq ya orta, ya da iri sahibkarlıq subyekti hesab ediləcəkdir. Qərara görə, yalnız yeni yaradılan sahibkarlıq subyektlərinin kiçik, orta və iri sahibkarlar kimi müəyyənləşdirilməsində onların dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən 1 (bir) il müddətində müəyyən edilmiş işçilərin say göstəricisi əsas götürülür, yəni «illik gəlir» göstəricisi nəzərə alınmır.

Müəssisə rəhbərləri arasında belə bir fikir formalaşa bilər ki, əgər müəssisə sadələşdirilmiş vergi ödəyicisidirsə, kiçik sahibkarlıq subyektidir və uçotunu bu Qaydalara əsasən sadə formada apara bilər. Amma bu, belə olmaya bilər. Məlumdur ki, Vergi Məcəlləsinə görə ardıcıl 12 aylıq dövriyyəsi 200.000 manatadək olan təsərrüfat subyektlərinin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ vardır. Deməli, sadələşdirilmiş vergi ödəyicisi kimi vergi mükəlləfiyyəti olan şəxslər kiçik sahibkarlıq subyekti olmaya da bilərlər, yəni dolayısı ilə illik gəliri 120.000 manatdan 200.000 manatadək aralığında olan sadələşdirilmiş vergi ödəyiciləri birbaşa orta sahibkar statuslu olurlar. Qeyd edək ki, Qərarda nəzərdə tutulan «illik gəlir»ə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, həmçinin satışdankənar gəlirlər aid edilir. Buradan belə nəticə çıxır ki, «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda nəzərdə tutulan kiçik sahikarlıq subyektləri ümumi halda sadələşdirilmiş vergi ödəyiciləri anlamına gəlməməlidir və bu baxımdan, sadələşdirilmiş vergi ödəyiciləri bu Qaydaların özlərinə şamil edilib-edilməməsini özləri müəyyən etməlidir. Sadələşdirilmiş vergi ödəyicilərindən bu Qaydaları tətbiq etmək hüququ olmayan kommersiya hüquqi şəxsləri mühasibat uçotunu Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının tələblərinə əsasən aparmalı və maliyyə hesabatlarını da bu Standartlara uyğun şəkildə tərtib etməyə borcludurlar. Lakin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) bu Qaydaları tətbiq etmək hüququnun hansı halda mümkün olmaması aydınlaşmır. Ona görə də istənilən vergi mükəlləfiyyətli və ya istənilən isçi sayına və dövriyyəyə malik fiziki şəxsin (fərdi sahibkarın) mühasibat uçotunu bu Qaydalara əsasən aparması qanunazidd hesab edilməməlidir.

Güman ki, bu Qaydaların qüvvəyə minməsi ilə əlaqədar kommersiya hüquqi şəxsləri arasında mühasibat uçotunu Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının tələblərinə əsasən aparmalı olan hüquqi şəxslərin sayı artacaqdır.

# Tibbi-sosial ekspertiza şəffaflığı təmin edir

Nazirlər Kabineti «Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları»nı təsdiq edib. Qaydalar əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi məqsədi daşıyır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev mətbuata açıqlamasında yeni qaydaların tibbi-sosial ekspertiza sahəsində məmur-vətəndaş təmaslarının əhəmiyyətli şəkildə azalmasına və şəffaflığın təminatına xidmət etdiyini bildirib: «Son illərdə həyata keçirilən islahat tədbirlərinin bir istiqaməti tibbi-sosial ekspertiza və reabilitasiya xidmətinin müasir yanaşmalar əsasında qurulması, əlilliyin müəyyən edilməsi sistemində məmur-vətəndaş təmaslarının minimuma endirilməsi və şəffaflığın təmin olunmasına yönəlib. Prezident İlham Əliyevin 14 sentyabr 2015-ci il tarixli elektron formada müraciət etmək imkanı yaradılmaqla, bu məqsədlə edilmiş müraciətlər, keçirilmiş müayinələr, qəbul olunmuş qərarlar barədə məlumatlar elektron formada real vaxt rejimində TSERAS-a ötürülür. Əlillik müayinəsi aparılmış vətəndaşların, işəgötürənlərin və müvafiq məlumatdan istifadə edən dövlət orqanlarının da «Elektron hökumət» portalı vasitəsilə sistemə çıxışı təmin olunub».

Qeyd edilib ki, fərmana uyğun olaraq, «Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə»də dəyişikliklər aparılıb. Dəyişikliklərdə yeni Əsasnamə təsdiq olunduğu günədək əlilliyi müəyyən edilmiş və həmin günədək əlillik müddəti başa çatmamış ikinci və üçüncü dərəcə əlilliyi olan şəxslərin əlillik müddəti beş il müddətinə uzadılıb: «Əlilliyi müəyyən edilmiş və əlillik müddəti başa çatmamış birinci dərəcə əlilliyi olan şəxslərin əlilliyi isə müddətsiz müəyyən olunub. Eləcə də Əsasnamənin 3.1.1 - 3.1.22-ci yarımbəndlərində göstərilən səbəblərdən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş, yeni Əsasnamənin təsdiq edildiyi günədək sağlamlıq imkanlarının məhdudluğu müddəti başa çatmamış 18 yaşadək uşaqların sağlamlıq imkanlarının məhdudluğu 18 yaşından yuxarı olmamaqla üç il müddətinə uzadılıb».

## Dövlət səhiyyə müəssisələri tərəfindən tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi elektron qaydada həyata keçiriləcək

«Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında» fərmanına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi (TSERAS) qurulub. TSERAS əlillik müayinələrinin aparılması üçün səhiyyə müəssisələri ilə tibbi-sosial ekspert komissiyaları arasında elektron məlumat mübadiləsinə, əlilliyin müəyyən olunmasında şəffaflığın təmin edilməsinə, məmur-vətəndaş münasibətlərinin minimallaşdırılmasına şərait yaradıb. Əlilliyin qiymətləndirilməsi üçün vətəndaşlara

Bu sahədə islahatların davamı kimi, «Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları»na əsasən, dövlət səhiyyə müəssisələri tərəfindən tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi elektron qaydada həyata keçiriləcək. Qaydalara əsasən, göndəriş səhiyyə müəssisəsi rəhbərinin səlahiyyət verdiyi şəxslər tərəfindən gücləndirilmiş elektron imza ilə üzərində xüsusi təkrarlanmayan nömrəsi olan elektron sənəd formasında iki iş günü ərzində «Elektron hökumət» portalındakı «Səlahiyyətli şəxsin qeydiyyatdan keçirilməsi» xidməti vasitəsilə «Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin reyestri»nə daxil ediləcək. Göndəriş reyestrə daxil olunan gün tibbi-sosial ekspertiza müayinəsi aparılacaq şəxsə bu barədə məlumat veriləcək. Səhiyyə Nazirliyi tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qeyd olunan reyestrə, habelə «Vətəndaşın elektron sağlamlıq kartı Sistemi»nə çıxışı təmin ediləcək ki, bu da göndərişlərin verilməsində kağız daşıyıcılardan istifadənin aradan qalxmasına, tibbi-sosial ekspertiza sahəsində məmur-vətəndaş ünsiyyətinin əhəmiyyətli şəkildə azalmasına və şəffaflığın təmin edilməsinə yönəlib.

Bununla yanaşı, yeni qaydalarda göndərişin qüvvədə olma müddətinin onun reyestrə daxil edildiyi gündən 30 iş günü təşkil etdiyi əksini tapıb. Qaydalarda göndəriş verilməsi üçün yazılı və ya elektron formada müraciət edən şəxsin müraciət etdikdən sonrakı 7 iş günündən gec olmayaraq, səhiyyə müəssisəsi tərəfindən sağlamlıq vəziyyətinin müəyyən edilməsi üçün müvafiq müayinələrin aparılması, xəstəlik tarixindən çıxarışların (epikrizlər) toplanılması, ehtiyac yaranarsa, diaqnozun dəqiqləşdirilməsi üçün şəxsin əlavə ambulator və ya stasionar müayinəyə göndərilməsi nəzərdə tutulur.

**F.İKRAMQIZI**

# Gömrük rəsmiləşdirilməsi elektronlaşdırılır

Dövlət Gömrük Komitəsi sahibkarların nəzərinə çatdırır ki, gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyan edilməsi ilə bağlı prosedurların sadələşdirilməsi, gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması və xarici ticarət əməliyyatlarının daha da stimullaşdırılması məqsədilə malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi 4 may 2016-cı il tarixdən etibarən elektron bəyanetmə sistemi vasitəsilə həyata keçiriləcək.

Bəyannaməçi təqdim etdiyi sənədlərin və həmin sənədlər əsasında gömrük bəyannaməsinin düzgün tərtib olunmasına görə gömrük qanunvericiliyinə əsasən birbaşa məsuliyyət daşıyır. Elektron bəyannamə «Elektron imza» ilə imzalanıb gömrük orqanına göndərilərək gömrük orqanları tərəfindən qəbul edilməsi təsdiq olunduqdan sonra hüquqi əhəmiyyətə malik sənəd sayılır və həmin bəyannamələrdə hər hansı bir məlumatın dəyişdirilməsi yolverilməzdir. Bu səbəbdən, təqdim edilmiş bəyannamədə buraxılmış hər hansı bir səhv gömrük orqanları tərəfindən ciddi tədqiq olunaraq, gömrük işi sahəsində hüquqpozma faktının müəyyən edilməsi məqsədilə xüsusi araşdırmalara göndəriləcək.

# İcarə haqqının ödənilməsində yenilik

Əvvəllər yalnız bank və internet üzərindən ödənilməsi mümkün olan icarə haqlarını artıq ödəmə məntəqəsində - «paypoint»də həyata keçirmək mümkün olacaq.

Dövlət əmlakının icarəçisi istənilən ödəmə məntəqəsinə yaxınlaşmaqla icarə haqqı borcu barədə məlumat əldə edə və müvafiq ödənişi həyata keçirə bilər. Bu, bank və ya kompüter-internet imkanlarının olmadığı yerlərdə xüsusilə əlverişlidir.

Beləliklə, hazırda dövlət əmlakının icarəsi üzrə aylıq ödənişlərin həm Əmlak Məsələləri Dövlət Komitəsinin elektron xidmətlər portalından (www.e-emdk.gov.az), həm Hökumət Ödəniş Portalından (www.e-gov.az), həm də müxtəlif ödəmə məntəqələrindən aparılması mümkündür.

Xatırladaq ki, komitə tərəfindən istifadəçilərə 31 elektron, 2 onlayn və 3 SMS xidmət təqdim olunur. Bu yeniliklərin tətbiqində başlıca məqsəd vətəndaşlara daha operativ, rahat və şəffaf xidmət göstərməkdir.

## vergi təqvimi

MAY

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24/31 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

16 may - «(5)» və «6».
20 may - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (idman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına təqdim edirlər.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panorama



# Norveçdə qeyri-rezident ödəyici statusunun qeydiyyatı sadələşdirilir

Hökumətin ƏDV ilə bağlı vergi qanununa təklif etdiyi düzəlişlərə uyğun olaraq, Norveçdə çalışan xarici şirkətlərə imkanı veriləcək ki, öz istəyindən asılı olaraq, ƏDV ödəyicisi statusunu qeyd etdirsin və ya qeyd etdirməsin. Hökumətin ictimaiyyətə açıqlamasında bildirilib ki, təklif olunan dəyişikliklər ƏDV qeydiyyatı prosesinin sadələşdirilməsi və nəticədə xarici müəssisələrin Norveçə tədarük fəaliyyəti ilə bağlı inzibati xərcləri azaltmaq məqsədi daşıyır.

Hazırda qüvvədə olan qanuna əsasən, Norveçdə daimi nümayəndəliyi olmayan və il ərzində 5400 ABŞ dolları dəyərindən artıq tədarükə görə vergi ödəməli olan şirkətlər ƏDV ödəyicisi kimi qeydiyyata alınmalıdırlar.

Hökumət bu məhdudiyyəti aradan qaldırmaq və yerli nümayəndəlik vasitəsilə ƏDV ödəyicisi statusu alıb-almamağı qeyri-rezident şirkətlərin öz öhdəsinə buraxmaq niyyətindədir. Yeni qaydalar Avropa İttifaqına üzv və ya Avropa iqtisadi zonasına daxil olan ölkələrdə təsis edilmiş şirkətlər üçün nəzərdə tutulub.

Hökumətin açıqlamasında təklif olunan dəyişikliklərin nə vaxt tətbiq olunacağı göstərilməyib.

# ABŞ-da vergi rezidentliyi

ABŞ-da rezident statusu daşıyan şəxslərin mühüm imtiyazları olmaqla yanaşı, onların həm də sadə olmayan vergi öhdəlikləri var. Məsələn, ABŞ vətəndaşlığı üçün vergi rezidentliyi hüququ verilir. Lakin burada vergi tutulması dünyanın əksər ölkələrinin ölçüləri ilə götürüldükdə, kifayət qədər sərt hesab edilir. ABŞ vətəndaşlarından vergi tutulması Vergi Məcəlləsi ilə tənzimlənir. Məcəllədə yalnız ölkənin bütün vətəndaşlarının statusu deyil, həm də daimi rezidentlərinin - «green card» sahiblərinin (yeri gəlmişkən, bu sənədin rəsmi adı «daimi rezident kartı»dır) statusu müəyyənləşdirilir. ABŞ vətəndaşları hətta uzun müddət başqa ölkələrdə yaşayıb işləsələr belə, Amerikaya vergi ödəməyə borcludurlar. Başqa sözlə desək, vətəndaşların bütün dünyadakı gəlirlərinə ABŞ vergi dərəcələri tətbiq edilir. Bundan əlavə, vətəndaş olmayan, lakin uzun müddət bu ölkədə işləyən şəxslər də ABŞ-da rezident və ya vergi ödəyicisi statusuna aid edilir. Bu mexanizmin tətbiqi üçün 3 il dalbadal ABŞ-da qalmaq kifayət edir. Əgər sonuncu ildə bu ölkədə 31 gündən az qalmamısınızsa, o zaman əvvəlki 2 il də daxil olmaqla bütün günlərin cəmi hesablanır. Hesablama aparılarkən keçən il üçün günlərin sayı 1/3-ə, ondan əvvəlki ilin günlərinin sayı isə 1/6-ə vurulur. Nəticədə 183 və daha çox gün toplayan şəxs ABŞ-ın vergi administrasiyasına özünün dünyadakı gəlirləri barədə hesabat verməli və ABŞ dərəcələri üzrə bu ölkəyə vergi ödəməlidir.

Bununla belə, vergitutma qaydalarının konkret şərtlərlə bağlı dəqiqləşdirilməsi imkanları da nəzərə alınmışdır. Məsələn, Rusiya ilə ABŞ arasında 1992-ci ildə imzalanmış sazişə əsasən, iki ölkə vətəndaşlarının ikiqat vergitutmaya cəlb edilməsi aradan qaldırılır. Daha bir misal: əgər ABŞ vətəndaşı Rusiyada 13% dərəcə ilə vergi ödəmişdirsə, onun ABŞ-da maksimal dərəcə üzrə vergi ödəməsinə ehtiyac qalmır, maksimal vergi dərəcəsindən, yəni 35%-dən 13% çıxılır və vətəndaş 22% vergi ödəyir. «Green card» sahibləri üçün vergi rezidentliyinin müəyyənləşdirilməsi zamanı maraqların münaqişəsi yarandıqda isə məsələ beynəlxalq qanunçuluğa əsasən həll edilir. ABŞ-dakı «green card» sahibləri yadda saxlamalıdırlar ki, onların daimi rezidentlik statusunu ləğv etməyə immiqrasiya orqanlarının kifayət qədər əsası var. Bunun üçün daha tutarlı səbəblərdən biri də vergi bəyannamələrinin təqdim edilməməsidir.

maraqlı

# «Şəkər vergisi» və dişlərin sağlamlığı

İrlandiyanın nüfuzlu ictimai təşkilatı olan Stomatoloji Assosiasiyasının məlumatına görə, şəkərə vergi tətbiq olunması «uşaqların karies xəstəliyindən azad olmasına əlahəmiyyətli dərəcədə təsir göstərəcək». Assosiasiyanın illik konfrasında qeyd olunub ki, dişlərdə karies yaranmasının qarşısının alınması hərtərəfli yanaşma tələb edir.

Təşkilat qazlı alkoqolsuz içkilərlə bağlı yeni qanun tətbiq olunmasından əlavə, bu içkilərin üzərində şəkərin miqdarı barədə xəbərdarlıq qeydlərinin olmasını dəstəkləyəcəyini də vurğulayıb. Assosiasiya bəyan edib ki, şirkətlər bu vergini tarazlaşdırmaq üçün digər ərzaq məhsullarının da qiymətini artıra bilərlər.

# Latviya prezidenti ölkə büdcəsinə görə utanır

Latviya Baltikyanı ölkələr arasında vergilərin ödənilməməsinə görə birinci yerdədir. Bu barədə ölkə prezidenti Raymonds Beyones məlumat vermişdir: «Mən utanıram ki, Estoniyanın büdcəsi 10 milyard avrodan artıqdır, iqtisadiyyatı ondan böyük olan Latviyanın büdcəsi isə 7 milyard avrodur».

Prezident vergilərin ödənilməsinin zəruri olduğunu qeyd etmişdir: əks halda, dövlət öz varlığını itirmək təhlükəsi ilə üzləşə bilər. Prezidentin sözlərinə görə, vətəndaşlar vergilərin yayındırılmasına göz yummaqda davam etsələr, Latviya «kölgə iqtisadiyyatı»ndan yaxa qurtara bilməyəcək: «Biz çox tənqid etsək də, əməkhaqqının «paket»də verilməsini həyat norması kimi qəbul edirik. Daha fəal olmalıyıq. Bu cür halları görürüksə və ya onda iştirak ediriksə, buna son qoyulmalı və bu barədə müvafiq orqanlara məlumat verilməlidir».

Latviyanın maliyyə naziri Arvils Aşaradens isə bəyan etmişdir ki, ölkə iqtisadiyyatı «nisbi götürdükdə pis vəziyyətdə deyil». Maliyyə Nazirliyi keçən il ölkənin aşağı vergi yükündən azad olmasının səbəblərini başa düşmək üçün hökumətin təftiş aparmağı planlaşdırdığını qeyd etmişdi. 2015-ci ildə işəgötürənlər sosial sığortanın 23,59%-ni, işçilər isə 10,5%-ni ödəmişdilər, əhalinin gəlir vergisi isə 23% təşkil edirdi. Latviyada əlavə dəyər vergisinin dərəcəsi keçən il 21% idi. Bununla yanaşı, hazırda ölkədə sosial işsizlik səviyyəsi 10,2%-dir. Bu göstəriciyə əsasən Latviya Baltikyanı ölkələr arasında birinci, Avropa İttifaqı ölkələri arasında isə ən yüksək yerlərdən birini tutur. 2015-ci ildə ölkə vətəndaşlarının orta aylıq «brutto əməkhaqqı» (vergilər çıxılmamış) 818 avro, orta aylıq «netto əməkhaqqı» (vergilər çıxıldıqdan sonra) 603 avro təşkil etmişdir, minimal əməkhaqqı isə 360 avro idi.

Qeyd etmək lazımdır ki, rəsmi statistikaya əsasən, Latviya əhalisinin 36,6%-i yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Bu göstəriciyə görə, Latviya Avropa İttifaqı üzvləri arasında Bolqarıstan (49%) və Rumıniyadan sonra (42%) üçüncü yeri tutur.



## Xəbər lenti

**Ukrayna**nın Maliyyə Nazirliyi Vergi Məcəlləsinə büdcə daxilolmalarının idarə edilməsinə təsiri minimuma endirməyi nəzərdə tutan qanun layihəsi hazırlayıb.

**SWIFT** beynəlxalq ödəniş sistemi öz müştərilərini «kiberinsidentlər» barədə məlumat daxil olduğu və dərhal müştəriyə aid proqram təminatı üçün xüsusi icbari yenilənməni buraxdığı barədə xəbərdar edib. Bundan əlavə, məlum olub ki, Banqladeşin Mərkəzi Bankından 81 milyon avro pul oğurlamış hakerlər SWIFT sisteminin həssas zonalarından da sui-istifadə edə bilərlər.

**Rusiya**da köhnə yük avtomobilləri və avtobuslar üçün nəqliyyat vergisinin artırılması planlaşdırılıb. Bu addımın atılmasında əsas məqsəd ölkənin avtomobil təsərrüfatının «gəncləşdirilməsidir». Bununla bağlı Vergi Məcəlləsinə düzəlişin 2019-cu ildən qüvvəyə minəcəyi gözlənilir.

**Tayvan** hökumətinin qəbul etdiyi yeni qaydalara əsasən, artıq mayın 1-dən xarici turistlər əlavə dəyər vergisini ölkənin doqquz hava və yeddi dəniz limanında xüsusi quraşdırılmış elektron terminallardan kredit kartları vasitəsilə geri ala bilirlər.

**«Apple»** şirkətinin təsisçilərindən olan Stiv Voznyak bəyan edib ki, şirkətlər daha artıq vergi ödəməlidirlər. Onun təklifinə görə, dünyadakı bütün böyük şirkətlər ən azı 50% dərəcə üzrə vergi ödəməlidirlər.

**İrlandiya** hökuməti film çəkilişi üçün məqbul xərclərin vergi kreditinə aid məhdudiyyəti mayın 1-dən 50 milyon avrodan 70 milyon avroya qaldırıb.

**İspaniya**ya istirahətə gedənlər ölkənin ən populyar adalarının mühafizəsi məqsədilə turist vergisi ödəməli olacaqlar. İyulun 1-dən sonra Malyorka, Menorka və İbisa adalarında dincələnlər buradakı ekoloji sistemin qorunması naminə təxminən 2 avro məbləğində «yaşıl vergi» verəcəklər.

**Yunanıstan** Maliyyə Nazirliyi mənzil kirayəsindən əldə edilən gəlirlər üçün vergi dərəcəsinin artırılmasını nəzərdə tutan qanun layihəsi hazırlayıb.

krossvord



**Yuxarıdan aşağı:** 1.Proqramlaşdırma dili; 2.Alkoqollu içkilərin satıldığı və içildiyi restoran tipli məkan; 3.Yaponiyada feodal dövründə (1185-1868) sahibi və ya ustası olmayan samuraylar; 4.Qədim türklərdə, sonralar isə kazak icmalarında hərbi bölük başçısı; 5.1990-cı il təvəllüdlü Avstraliya aktrisasının və müğənnisinin adı; 6.İslamda ilahiyyat və din üzrə təhsil almış alim; 7.Keçmiş futbolçu, Azərbaycanın əməkdar məşqçisi. «Qarabağ» futbol klubunun baş məşqçisi; 13.Musiqidə alterasiya işarəsi; 15.ABŞ-ın Nyu-York şəhərinin Manhattan bölgəsində yerləşən məşhur küçə; 16.XX əsrin əvvəlində Parisdə moda dizayneri tərəfindən təsis edilmiş dəbdəbəli geyim və ətir istehsalı firmasının adının ingiliscə yazılışı; 17.Kimyəvi üsulla əldə edilən tündsürməyi boya maddəsi; 18.Böyük Fransa inqilabı dövrünün məşhur siyasi xadimi; 20.Yunanıstanda şəhər; 21.İspaniya və Portuqaliyada geniş yayılmış kişi adı. Pyotr adının analoqu.

**Soldan sağa:** 1.Dövlət idarəetməsində münasibətlər sisteminin bir forması. Daha çox avtoritar rejimlərdə tətbiq edilir; 8.Subekvatorial qurşaqda ot örtüyünə və seyrək ağac və kollara malik geniş ərazi; 9.Hər hansı bir şirkətin məhsullarını topdan alıb, sonradan pərakəndə və kiçik topdan satılması ilə məşğul olan hüquqi və ya fiziki şəxs; 10.Süd məhsulundan hazırlanmış sərinləşdirici içki; 11.ABŞ-da ştat; 12.Cinayətkarlardan, quldurlardan təşkil olunmuş dəstə. Hindistanda şəhər; 14.Alçaq yerləri su basmaqdan qorumaq, sututarlarda isə suyu saxlamaq və s. üçün quraşdırılan hidrotexniki qurğu (bənd); 19.Məşhur Amerika kinoaktrisasının soyadı. «Roma tətilləri»nin baş qəhrəmanı; 21.Ədəbi termin, nəsr; 22. Şərq masaüstü oyun növü; 23.Özbəkistanda şəhər; 24.Moldova və Rumıniyanın pul vahidi; 25.Dahi rus bəstəkarı, pianoçusu və dirijoru.



*«Roma tətilləri» filmindən fraqment*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Somali; 2.Nordvik; 3.Dunay; 4.Miosen; 5.Nordkin *(burnu)*; 6.Ofşor; 7.Qudron; 13.Ərak; 15.Varrant; 16.Ebonit; 17.Kimono; 18.Faktor; 20.Nəimi; 21.Asimo. **Soldan sağa:** 1.San-Dominqo; 8.Marenqo; 9.Rəşid *(Behbudov)*; 10.Liviy *(Tit)*; 11.Eskarqo; 12.Əkbər *(şah)*; 14.Aniva; 19.Benqazi; 21.Aorta; 22.Nail; 23.Rosinant; 24.Tai; 25.Promouter.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

*idman*

# Azərbaycanda ilk dəfə - «Bakı Marafonu-2016»



Mayın 1-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Küləyə qalib gəl» şüarı altında «Bakı Marafonu-2016» keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva marafonda iştirak edib.

Saat 10:00-da Dövlət Bayrağı Meydanından start verilən yarışa Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb-çalışan 500-dək əcnəbi qoşulub. İspaniya, Fransa, Qazaxıstan, Ukrayna, Səudiyyə Ərəbistanı, İran, Hindistan, Çexiya və digər ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirliklərinin rəhbərləri və nümayəndələri, tələbələr, idmançılar, bir sıra tanınmış ictimai-siyasi xadimlər, ictimaiyyət nümayəndələri iştirakçılar arasında olub. Marafonda, həmçinin Avstriya, Almaniya, İspaniya, Fransa, Rusiya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Keniya və digər ölkələrdən nümayəndələr iştirak ediblər.

Dənizkənarı Bulvar İdarəsinin, Bakı Olimpiya Stadionunun dəstəyi ilə təşkil edilən, icrası «SMG» (Sport Marketing Group) şirkəti tərəfindən həyata keçirilən marafonun əsas məqsədi Azərbaycanda idmanın inkişafına dəstək göstərmək, insanlar arasında, xüsusilə gənclərdə sağlam həyat tərzini təşviq etmək, onları xeyirxah məqsədlər naminə bir araya gətirməkdir. Marafona 16 yaşdan yuxarı şəhər sakinləri, qonaqlar əvvəlcədən qeydiyyatdan keçərək qoşulublar. Yeddi mindən çox iştirakçı qeydiyyatdan keçib. Tələbələrin iştirakı ilə bağlı vəsait Heydər Əliyev Fondu tərəfindən qarşılandığından onlar qeydiyyat zamanı ödəmə etməyiblər. Bakı marafonundan toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı layihəsinə yönəldiləcək.

Bakı Olimpiya Stadionunda toplaşan azarkeşlər «Küləyə qalib gəl»ənləri dəstəkləyiblər. Yarışın finiş xətti və medal təltifetmə mərasimi də Bakı Olimpiya Stadionunda olub. Marafonda kişilər arasında finişə birinci Namiq Əsədov, Gürcüstan vətəndaşı Georgi Dameniya ikinci və Tural Sadıxlı isə üçüncü çatıb. Qadınlar arasında Rahidə Aslanova birinci, Nataşa Pitersen (Böyük Britaniya) ikinci, Rəqsanə Rəcəbli isə finişi üçüncü başa vurub.

Sonra «Bakı Marafonu-2016»nın qaliblərinin mükafatlandırılması mərasimi olub. Təşkilatçılar tərəfindən birinci yerin qalibi 3 min, ikinci yerin qalibi 2 min, üçüncü yerin qalibi isə min manat məbləğində mükafat və hədiyyələrlə təltif olunub.

Bakı Marafonunun növbəti illərdə də keçirilməsi nəzərdə tutulub.

# Azərbaycan Güləş Federasiyasının Kuboku uğrunda...



«Sərhədçi» İdman Olimpiya Mərkəzində sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmə və gənclər arasında Azərbaycan Güləş Federasiyasının Kuboku uğrunda ənənəvi beynəlxalq turnir başa çatıb.

Son yarış günündə sərbəst güləş üzrə 89 gənc pəhləvan yarışıb. Azərbaycan yığmasının üzvləri 3 qızıl, 4 gümüş və 9 bürünc medal qazanıb. Komanda hesabında Azərbaycan 73 xalla birinci, İran 64 xalla ikinci, eyni xal toplayan Gürcüstan üçüncü yerdə qərarlaşıb. Qalib və mükafatçılar Azərbaycan Güləş Federasiyası tərəfindən medal, diplom və pul mükafatı ilə təltif olunub.

Qeyd edək ki, turnirdə Azərbaycanla yanaşı, Belarus, Ukrayna, Özbəkistan, Qırğızıstan, Gürcüstan, İran, Bolqarıstan, Rusiya, İraq, Türkiyə və Qazaxıstan pəhləvanları mübarizə aparıb.

# «Qarabağ» ardıcıl üçüncü dəfə Azərbaycan çempionu oldu!

Mayın 1-də futbol üzrə Topaz Premyer Liqasında XXXII tura yekun vurulub. Premyer Liqanın lideri - Ağdamın «Qarabağ» komandası sona dörd tur qalmış çempionluğunu elan edib. «Qarabağ» çempionluğu rəsmiləşdirmək üçün lazım olan 3 xalı səfərdə paytaxt təmsilçisi «Zirə»ni 2:0 hesabı ilə məğlubiyyətə uğradaraq əldə edib. Ağdamlıların ilk qolunu oyunun 28-ci dəqiqəsində Dani vurub. 74-cü dəqiqədə isə Reynaldo «Qarabağ»ın ikinci qolunu rəsmiləşdirib.

Bu qələbə sayəsində ardıcıl üçüncü dəfə Azərbaycan çempionu adını qazanan «Qarabağ»ın baş məşqçisi Qurban Qurbanov, həmçinin, ölkə çempionatları tarixinə yeni rekordçu kimi də daxil olub. 44 yaşlı mütəxəssis ardıcıl üç dəfə komandası ilə ölkə çempionluğunu bayram edən ilk məşqçi olub. Buna səbəb «Qarabağ»ın Premyer Liqada 2015/2016 mövsümünün çempionu olaraq, ardıcıl üçüncü dəfə qızıl medalları qazanmasıdır. Məlum olub ki, hər üç zəfərdə əməyi keçən Qurban Qurbanovadək heç bir məşqçi bunu bacarmayıb.



Ardıcıl üç çempionluq əldə edən «Neftçi» isə bir dəfə Arif Əsədov, iki dəfə Böyükağa Hacıyev ilə titula yiyələnib. Bunadək Kazbek Tuayev, Mehman Allahverdiyev, Ağasəlim Mircavadov, Böyükağa Hacıyev ardıcıl iki mövsümdə çempion olmağı bacaran mütəxəssislər idi.

# «Tour d'Azerbaidjan-2016» veloyürüşü ilə bağlı mətbuat konfransı

Mayın 4-də start götürəcək «Tour d'Azerbaidjan-2016» beynəlxalq velosiped turu ilə əlaqədar Respublika Velotrekində mətbuat konfransı keçirilib. Tədbirdə veloturun Təşkilat Komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov və yarışın texniki direktoru, Avropa Velosipedçilər Birliyinin fəxri baş katibi Roland Hofer iştirak ediblər.

Mətbuat konfransından əvvəl əcnəbi qonaqlar və jurnalistlər yenidən qurulmuş və genişləndirilmiş Respublika Velotreki ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanda ilk velosiped treki 1980-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə istifadəyə verilib. O dövrdə ən müasir idman qurğularından biri hesab olunan Respublika Velotrekinin beton örtüyünün perimetri 333,33 metrdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində baxımsızlıq üzündən Velotrekin beton örtüyü dağılmış, ərazisinin böyük hissəsi isə zəbt olunmuşdu.

Azərbaycan Velosiped İdmanı Federasiyası yenidən təşkil olunduqdan sonra - 2012-ci ildə Velotrekin ərazisində geniş yenidənqurma və abadlıq işlərinə başlanıldı. Trekin beton örtüyü əsaslı şəkildə yenidən quruldu, ərazidə ən müasir tələblərə cavab verən yeni inzibati bina, mini-futbol meydançası, BMX velosipedçilərinin məşq etmələri üçün «Pamp-Park», hər birinin tutumu 150 kubmetr olan 2 su anbarı, qazanxana və s. inşa olundu. Ümumi sahəsi 4620 kvadratmetr olan inzibati binada federasiyanın ofisi, 2 konfrans zalı, komandalar üçün iş və tədris otaqları, trenajor zalları, həkim məntəqəsi, məşqçilər və idmançılar üçün mənzillər və s. yerləşir.

Mətbuat konfransı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ailəsi ilə birlikdə 2015-ci il Avropa Oyunları ərəfəsində Veloparkda inşa olunmuş yeni BMX stadionu ilə tanış olarkən «Synergy Baku» komandası ilə görüşünü əks etdirən videoçarxın nümayişi ilə başlanıb. Konfrans iştirakçılarının nəzərinə çatdırılıb ki, həmin görüşdə ölkə başçısı «Tour d'Azerbaidjan» beynəlxalq yarışlarını «Eurosport» kanalı vasitəsilə izlədiyini, bu turun Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) təqvimində özünə möhkəm yer tutduğunu, Bakının və bütövlükdə ölkəmizin dünyaya tanıtdırılmasında müstəsna rol oynadığını məmnunluqla vurğulayıb.




Veloturun Təşkilat Komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov «Tour d'Azerbaidjan-2016» barədə ətraflı məlumat verərək bildirib ki, bu veloyürüş həm gözəl bir idman tədbiridir, həm də ölkəmizin beynəlxalq arenada təbliği baxımından mühüm rol oynayır. Velosiped idmanı başqa idman növlərindən onunla fərqlənir ki, digər yarışlar əsasən qapalı məkanda keçirildikləri halda, bu yarışlar yüz kilometrlərlə məsafəni əhatə edir və düzənlik, dağlıq ərazilərdən, müxtəlif şəhər, rayon, qəsəbə və kəndlərdən keçməklə təşkil olunur. Təbii ki, bu da ölkənin beynəlxalq səviyyədə tanınması, onun görməli yerlərinin, turistləri maraqlandıran məkanlarının bütün dünyaya təqdim edilməsi üçün çox vacibdir.

Qeyd olunub ki, «Eurosport» kanalının rəsmi məlumatına görə, keçən il «Tour d'Azerbaidjan» beynəlxalq veloturu dünyanın 56 ölkəsinin 72 telekanalı vasitəsilə yayımlanarkən 32,7 milyondan çox televizor bu kanallara köklənib. Hər televizor qarşısında da bir neçə nəfərin yarışları izlədiyini, habelə «Eurosport» kanalının rəsmi internet səhifəsinə «Tour d'Azerbaidjan»la bağlı 15 milyondan çox daxilolma qeydə alındığını nəzərə alsaq, yüz milyondan çox insanın həm velotur, həm də Azərbaycan barədə geniş məlumat əldə etdiyini əminliklə söyləmək olar.

Bildirilib ki, builki yarışda 18 ölkədən 21 komanda mübarizə aparacaq ki, onlardan da 6-sı peşəkar kontinental, «Synergy Baku» da daxil olmaqla 14-ü kontinental, 1-i isə milli komandadır. Velotur 5 mərhələdən ibarətdir və velospiedçilər beş gün ərzində Bakı və Sumqayıt şəhərlərinin, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonlarının ərazilərindən keçməklə 790 km-dən çox məsafə qət edəcəklər.

Azərbaycana hər səfərində bir çox müsbət dəyişikliklərin şahidi olduğunu deyən Roland Hofer ölkəmizdə velosiped idmanının günü-gündən inkişaf etməsindən, yeni idman qurğularının tikilməsindən məmnunluğunu bildirib. Qeyd edib ki, Azərbaycanda artıq velosiped idmanının inkişafı üçün gözəl baza yaradılıb, Velopark, BMX stadionu, Dağ Velosipedi Parkı, Velotrek istifadəyə verilib. Azərbaycanın «Synergy Baku» kontinental komandası bu günlərdə Xorvatiyada 5 dünya turu, 7 peşəkar kontinental və 9 kontinental kollektivin iştirakı ilə keçirilən nüfuzlu yarışda həm ümumkomanda hesabında çempion olub, həm də komandanın üzvü Matiya Kvasina lider köynəyini qazanıb. Azərbaycanın milli yığma komandasının üzvü Yelena Pavluxina da bir neçə gün əvvəl Çexiyada keçirilən 5 günlük beynəlxalq turnirin qalibi olub. R.Hofer yenicə inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycan velosipedçilərinin «Rio-2016» Yay Olimpiya Oyunlarına 3 lisenziya qazanmalarını da böyük uğur kimi dəyərləndirib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunan 5 mərhələdən ibarət «Tour d'Azerbaidjan-2016» beynəlxalq velosiped turunun, əvvəlki illərdə oluğu kimi, bu dəfə də uğurla keçəcəyinə əmin olduğunu deyən Roland Hofer qonaqların Azərbaycandan ən xoş hisslərlə ayrılacaqlarına şübhə etmədiyini vurğulayıb.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Qadın velosipedçimizin mötəbər turnirdə qələbəsi

Azərbaycanın şose velosipedi üzrə yığma komandasının və Sloveniyanın «BTC City Ljubljana» klubunun üzvü Yelena Pavluxina Çexiyada keçirilən və 5 mərhələdən ibarət olan «Gracia Orlova» turunu möhtəşəm qələbə ilə başa vurub. Yarışın 2-ci mərhələsində hamını qabaqlamaqla ümumi təsnifatda lider köynəyini ələ keçirən velosipedçimiz bu üstünlüyünü sonadək qoruyub.




Məlumat üçün onu da qeyd edək ki, idmançımız Hollandiyanın nüfuzlu «Rabobank» klubunun avstraliyalı üzvü Sara Gillounu 1 dəqiqə 45 saniyə, Almaniyanın «Canyon Sram Racing» komandasının belaruslu nümayəndəsi, «Bakı-2015» ilk Avropa Oyunlarının qalibi Alyona Amalisyuku isə 1 dəqiqə 50 saniyə qabaqlayıb.

Bu qələbə Yelena Pavluxinaya «Rio-2016» Yay Olimpiya Oyunlarına vəsiqə yolunda növbəti lisenziya xalları da qazandırıb. Təmsilçimiz 2-ci mərhələnin qalibi olmaqla 8, ümumi təsnifat birinciliyinə görə isə əlavə 40, bütövlükdə 48 reytinq xalı əldə edib.